**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

26 may 2023-cü il
№20 (9028)

www.muallim.edu.az
muallim@edu.gov.az

## BU SAYIMIZDA


Təhsil festivalından rəngarəng anlar



səh.3

IV SABAH İncəsənət Festivalının açılış mərasimi keçirilib



səh.6

TƏHSİLİN humanitarlaşdırılması, yaxud humanitar təhsil...



səh.8

4 ildə 2 universitetdən 2 diplom




səh.12


# Müzəffər Ali Baş Komandanın gələcək nəsillərə dövlətçilik əmanəti

## Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi Azərbaycan Bayrağı bu gün işğaldan azad olunmuş Şuşada dalğalanır



Hər bir xalqın həyatında yaşanan tarixi zəfərin, baş verən əlamətdar ictimai-siyasi hadisənin öz təvəllüd zamanı mövcuddur və dövlətçilik tarixində mühüm əhəmiyyət daşıyan proseslər təqvimdə hər zaman qürurla əbədiləşir. 28 may kimi...

XX əsrin əvvəlləri Azərbaycan xalqının ürəyində müstəqillik arzusunun ilk baş qaldırdığı mürəkkəb bir dövr idi. Rusiya imperiyasının caynağından qopmaq istəyi böyük fədakarlıq, davamlı mübarizə, cəsur ürək istəyirdi. Siyasi meydanda Azərbaycanı güclü və yırtıcı imperiyanın itaətindən çıxarmaq istəyən işıqlı, fədakar, döyüşkən ziyalılar yetərincə idi. Məhz onların mübarizəsi nəticəsində Azərbaycan 1918-ci ildə öz müstəqilliyini qazana bildi. Bu şərəfli səhifənin başqa bir adı Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasının yaradılması hadisəsi idi.

Ardı səh.9

## Ümummilli Liderin milli vətənpərvərlik konsepsiyası

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin nəzəri irsində və əməli dövlətçilik təcrübəsində milli tərbiyə, milli vətənpərvərlik konsepsiyası mühüm yer tutur. Milli tərbiyənin başlıca qayəsi, ilk növbədə, gənclərin dövlətçilik, müstəqillik, azadlıq və onların qorunması uğrunda mübarizlik ruhunda tərbiyə olunmasından ibarətdir. Ulu Öndər Heydər Əliyevin məruzə, nitq və çıxışlarında müstəqil Azərbaycanın milli tərbiyə, milli vətənpərvərlik konsepsiyasının mühüm komponentləri, təməl prinsipləri öz əksini tapmışdır. Heydər Əliyev Azərbaycan gənclərinin Birinci forumunda söylədiyi nitqində (2 fevral 1996-cı il) milli-mənəvi tərbiyənin proqramını, onun reallaşdırılması imkanları və yollarını müəyyən etmişdir. Ulu Öndər gənclərin qarşısında duran əsas vəzifələrdən birinin mənəvi tərbiyə, vətənpərvərlik tərbiyəsi məsələsi olduğunu göstərmişdir. Ümummilli Liderimizin milli tərbiyə ilə bağlı konseptual baxışlarında vətənpərvərlik aparıcı yer tutur. Bu məsələyə böyük əhəmiyyət verən Ulu Öndər vətənpərvərliyin mahiyyətini açıqlayarkən göstərir ki, "Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Ardı səh.5

## Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində

Çağdaş Azərbaycan dövlətçiliyi tarixinə "I Respublika" adı ilə daxil olmuş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün qısamüddətli fəaliyyəti dövründə İstiqlal Bəyannaməsi ilə dövlət müstəqilliyini elan etmiş və onun dünyanın aparıcı dövlətləri tərəfindən de-fakto tanınmasına nail olmuş, xalqın milli mənlik şüurunu özünə qaytarmış, öz milli müqəddəratını təyin etməyə qadir və onu qorumağa, yaşatmağa layiq olduğunu sübuta yetirmiş, eləcə də Şərqdə, türk dünyası və islam aləmində ilk demokratik, dünyəvi, parlamentli dövlət qurmaqla, zəngin mədəniyyətə və ulu tarixi keçmişə sahib olan sivil millət olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

AXC Hökuməti və Parlamenti o dövrün son dərəcə mürəkkəb ictimai-siyasi durumuna və iqtisadi çətinliklərinə baxmayaraq, ölkədə maarifin, təhsilin, bütövlükdə milli mədəniyyətin inkişafını təmin etmək üçün sözün həqiqi və geniş mənasında təkcə mümkün olanları deyil, hətta o zaman üçün mümkünsüz sayılan bir çox ümummilli problemlərin həlli üçün real addımlar atmış, yaxud da tariximizin ondan sonrakı dövrlərində həll olunmuş çoxsaylı maarif, təhsil, mədəniyyət məsələlərinin təməlini, əsasını qoymuş, görüləcək bir çox işlərin ilkin layihələrini hazırlamış, ideya əsaslarını vermişdi...

Ardı səh.9

## Elmi-tədqiqat üzrə birgə fəaliyyət universitetlərimizə nə verəcək?



Məlum olduğu kimi, aprelin sonlarında Azərbaycanda ilk mərhələdə Bakı Dövlət Universiteti (BDU) və 5 elmi-tədqiqat müəssisəsi arasında Elmi-tədqiqat üzrə birgə fəaliyyətin təşkili ilə bağlı Anlaşma Memorandumu imzalanıb.

Universitetlərimizin beynəlxalq reytinq göstəricilərinin yüksəldilməsi, onların elmi-tədqiqat mərkəzlərinə çevrilməsi memorandumun məqsədləri sırasındadır. Memorandum universitetlərimizə, ali təhsil sisteminə, eləcə də elmi-tədqiqat institutlarına nə kimi töhfələr verəcək? Xüsusən də alimlərimizin beynəlxalq nüfuzlu elmi nəşrlərdə aktivliyi baxımından bunu necə qiymətləndirmək olar? Xaricdə elmi fəaliyyətlə məşğul olan alimlərimiz belə bir əməkdaşlıq memorandumunun imzalanmasının vacibliyi və əhəmiyyəti barədə nə düşünürlər?

Kanadanın nüfuzlu Vaterloo Universitetinin riyaziyyat professoru İlham Axundovun bu barədə fikirlərini oxucularımıza çatdırırıq:

- Anlaşma Memorandumlarını vacib sayıram. Çünki belə sənədlər hər bir tərəfə öz məqsədlərini və bir-birindən nə gözlədiklərini aydın şəkildə ifadə etməyə imkan verir. Anlaşma Memorandumu hüquqi sənəd olmasa da, əhəmiyyətli addım kimi qiymətləndirilir.

Ardı səh.7

## UNESCO-nun İpək Yolu Proqramı tədqiqat müsabiqəsi ELAN EDİR

**UNESCO-nun İpək Yolu Proqramı "Silk Roads Youth Research Grant" qrant layihəsi çərçivəsində müsabiqədə iştirak üçün tədqiqat işlərini qəbul edir.**

**Yaşı 35-dək olan gənc tədqiqatçılar İpək Yolu ortaq irsi ilə əlaqədar olaraq müəyyən edilmiş mövzular üzrə tədqiqat layihəsi təqdim edə bilərlər.**

**Müsabiqədə iştirak etmək istəyən namizədlər üçün son müraciət tarixi 31 may 2023-cü ildir.**

**Müsabiqə barədə ətraflı məlumatla elan (https://htp.edu.az/uploads/fileuploads/2023/05/31c5542d423a43178c71cf6dc136b51c.pdf) vasitəsilə tanış ola bilərsiniz.**

## Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu dünya reytinqində

"Dünya Universitetləri Reytinq Mərkəzi" (CWUR) təhsil və elmi tədqiqat müəssisələrinin 2023-cü il üzrə reytinqini (CWUR Global 2000) açıqlayıb. Sözügedən reytinq çərçivəsində dünyanın 20531 universiteti tədqiqata cəlb olunub. Onların arasından 95 ölkədən ən yaxşı 2000 ali təhsil ocağı seçilərək ümumi reytinqə daxil edilib. Reytinqdə təkcə universitetlər deyil, tədqiqat təşkilatları da iştirak edir. Tərtibçilər akademik və elmi təşkilatların fəaliyyətinin obyektiv göstəricilərinə diqqət yetirirlər, bütün məlumatlar isə açıq mənbələrdən götürülür.

Azərbaycanı reytinqdə Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu təmsil edir. İnstitut 68.1 bal toplayaraq 1460-cı yeri (Top 7.2%) tutub. Qeyd edək ki, "Dünya Universitetləri Reytinq Mərkəzi" (CWUR) ali təhsil müəssisələrini təhsil səviyyəsi, əmək bazarında məzunlara duyulan ehtiyac, elmi nəşrlərin keyfiyyəti, elmi sahəyə təsiri və istinad olunması kimi kriteriyalar əsasında qiymətləndirən aparıcı konsaltinq təşkilatdır. Ancaq Mərkəz universitetlərin verdiyi məlumatlara etibar etmir və bütün lazımi məlumatları özü toplayır. Reytinqlər dərc edildikdən sonra təşkilat hökumətlərə və universitetlərə təhsil və tədqiqatların nəticələrini yaxşılaşdırmaq üçün tövsiyələr verir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi * Fizika İnstitutu * FI

Ardı səh.2

# Azərbaycan və Gürcüstan arasında ümumi, ali təhsil və elm sahələrində yeni əməkdaşlıq perspektivləri

## Elm və təhsil naziri Gürcüstanda səfərdə olub

### Muzey ilə tanışlıq, Qazax Müəllimlər Seminariyasının tələbələri ilə görüş




Mayın 18-də Gürcüstana səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetinin rektoru Hafiz Paşayevlə birlikdə Tbilisi şəhərindəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinə baş çəkib.

Ziyarət zamanı M.F.Axundzadənin həyat və yaradıcılığı, muzeyin fəaliyyəti, burada saxlanılan eksponatlar barədə məlumatlarla tanışlıq olub.

Elm və təhsil naziri səfər zamanı Qazax Müəllimlər Seminariyasına yeni qəbul olunan tələbələrlə də görüşüb.

### Nazir Tbilisi Dövlət Universitetində Heydər Əliyev adına auditoriyanın açılış mərasimində iştirak edib




Mayın 19-da Gürcüstana səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində Heydər Əliyev adına auditoriyanın açılış mərasimində iştirak edib.



Tədbirdə çıxış edən elm və təhsil naziri Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bir çox sahələrdə, o cümlədən təhsil sahəsində həyata keçirilmiş islahatlar və onların nəticələri barədə tədbir iştirakçılarına məlumat verib. Emin Əmrullayev Ulu Öndərin azərbaycanlı gənclərin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına göstərdiyi dəstəyi xüsusilə vurğulayıb və auditoriyanın açılışına verdiyi dəstəyə görə Tbilisi Dövlət Universitetinə təşəkkürünü bildirib.

Daha sonra elm və təhsil naziri Emin Əmrullayev ilə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari Tbilisi şəhərində yerləşən tədris Azərbaycan dilində aparılan M.F.Axundov adına 73 nömrəli məktəbi ziyarət edib və məktəbdə keçirilən "Son zəng" tədbirində iştirak edib.

Səfər çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Gürcüstanın Texniki Universitetini ziyarət edib, ali təhsil müəssisəsinin rektoru David Qurgenidze ilə görüşüb.

### Emin Əmrullayev Gürcüstanın Baş naziri ilə görüşüb



Mayın 19-da Gürcüstanda səfərdə olan elm və təhsil naziri Emin Əmrullayev bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Görüşdə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari, ADA Universitetinin rektoru Hafiz Paşayev və Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev iştirak ediblər.

Görüş zamanı Azərbaycanda gürcü dilində, Gürcüstanda isə Azərbaycan dilində tədris aparılan məktəblərin fəaliyyəti yüksək qiymətləndirilib, ümumi, ali təhsil və elm sahələrində əməkdaşlığın perspektivləri vurğulanıb.

### ADA Universitetinin rektoru GTU-nun fəxri doktoru adına layiq görülüb



Mayın 19-da ADA Universitetinin rektoru Hafiz Paşayev Gürcüstan Texniki Universitetinin (GTU) fəxri doktoru adına layiq görülüb.

GTU-nun rektoru David Qurqenidze bildirib ki, universitetin Elmi Şurası ADA Universitetinin rektoru Hafiz Paşayevin fəxri doktor adına layiq görülməsi barədə qərar qəbul edib. Rektor GTU-nun fəxri doktoru diplomunu və fəxri döş nişanını Hafiz Paşayevə təqdim edib.

Hafiz Paşayev öz növbəsində GTU-nun rektoru və Elmi Şurasına minnətdarlığını bildirib.

## Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu dünya reytinqində

CWUR WORLD UNIVERSITY RANKINGS

Əvvəli səh.1

Reytinqə ənənəvi olaraq Harvard Universiteti başçılıq edir. Reytinqin ilk 10-luğuna əsasən ABŞ və Böyük Britaniya universitetləri daxildir:

1.Harvard Universiteti (ABŞ), 2.Massaçusets Texnologiya İnstitutu (ABŞ), 3.Stanford Universiteti (ABŞ), 4.Kembric Universiteti (Böyük Britaniya), 5.Oksford Universiteti (Böyük Britaniya), 6.Prinston Universiteti (ABŞ), 7.Çikaqo Universiteti (ABŞ), 8.Kolumbiya Universiteti (ABŞ), 9.Pensilvaniya Universiteti (ABŞ), 10.Yale Universiteti (ABŞ).

Reytinqdə Türkiyənin Hacettepe, Ankara, Boğaziçi, İstanbul, İstanbul Texniki, Ege, Mərmərə, Qara Dəniz Texnik, Bilkənt, Koç, Sabançı, Qazi, Çankaya və s. 55 universiteti yer alıb. Rusiyadan 43 elm və təhsil müəssisəsi reytinqə daxil olub. M.V.Lomonosov adına MDU ən yaxşı 200 təhsil müəssisəsi sırasına düşə bilməyib (217-ci yer).

### Reytinq universitet və elm müəssisələrini aşağıdakı dörd göstərici üzrə qiymətləndirir

Təhsil keyfiyyəti (25%): universitet məzunlarının akademik uğurlarına əsaslanır və ali məktəbin böyüklüyünə nisbətən nüfuzlu akademik mükafatlar almış məzunların sayı ilə ölçülür.

Məzunların məşğulluq imkanı (25%): universitet məzunlarının peşə uğurlarına əsaslanır və ali məktəbin böyüklüyünə nisbətən iri şirkətlərdə rəhbər vəzifələr tutan universitet məzunlarının sayı ilə ölçülür.

Fakültənin keyfiyyəti (10%): nüfuzlu akademik mükafatlar almış müəllimlərin sayı ilə ölçülür.

Tədqiqatların səmərəliliyi:

a) Son 10 ildə nəşrlərin sayı (10%) - dərc olunmuş elmi məqalələrin sayı ilə ölçülür.

b) Yüksək keyfiyyətli nəşrlər (10%) - aparıcı (top-tier) jurnallarda dərc olunan elmi məqalələrin sayı ilə ölçülür.

v) Təsir səviyyəsi - nüfuzlu (çox nüfuzlu) jurnallarda dərc olunan elmi məqalələrin sayı ilə ölçülür - 10%.

d) Sitatlaşdırma səviyyəsi - yüksək qiymətləndirilən elmi məqalələrin sayı (10%) ilə ölçülür.

**Oruc MUSTAFAYEV**

# Təhsil festivalından rəngarəng anlar



**Festivalın keçirilməsində məqsəd ölkə üzrə təhsilin inkişafı üçün maraqlı tərəflər arasında regionda əməkdaşlıq platformasının yaradılmasıdır**

Mayın 20-də Astarada təhsil festivalı keçirilib. Elm və Təhsil Nazirliyi, Astara Rayon İcra Hakimiyyəti, Lənkəran-Astara Regional Təhsil İdarəsi, Lənkəran Regional Mədəniyyət İdarəsi, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə baş tutan festival Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təşkil olunub.

Rayonun dənizkənarı park-bulvar kompleksində keçirilən festivalda elm və təhsil naziri Emin Əmrullayev, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, millət vəkilləri, yazıçılar, təhsil müəssisələri və nəşriyyat rəhbərləri, məktəblilər, rayon ictimaiyyəti iştirak edib.

Festivalın keçirilməsində məqsəd ölkə üzrə təhsilin inkişafı üçün maraqlı tərəflər arasında regionda əməkdaşlıq platformasının yaradılmasıdır.

Festivalda tədris ili ərzində xüsusi nailiyyətləri ilə fərqlənən şagirdlərlə, Vətən müharibəsi iştirakçıları olan təhsil işçiləri ilə görüşlər keçirilib.

Festivalda stendlərlə iştirakçı qismində çıxış edən müəssisələr müxtəlif xidmət və məhsullarını nümayiş etdiriblər.

Daha sonra "Musiqi dünyamız" mahnı festivalı, fləşmob keçirilib.

Qeyd edək ki, festivalda ümumilikdə 10 minə yaxın izləyici iştirak edib.








## Mətin Kərimli Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri təyin olunub

Mətin Kərimli 1999-cu ildə Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr fakültəsini bitirib. 2000-2001-ci illərdə Fransanın Strasburq Universitetində Avropa elmləri üzrə fənlərarası diplom, 2001-2002-ci illərdə Avropa elmləri üzrə magistr dərəcəsi alıb. 2012-ci ildə Harvard Universitetini dövlət idarəetməsi ixtisası üzrə magistr dərəcəsi ilə bitirib.



Mətin Kərimli Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının vitse-prezidenti, NATO-nun Müdafiə Siyasəti və Planlaşdırma İdarəsinin Beynəlxalq Katibliyində tərəfdaşlıq zabiti, Azərbaycanın NATO yanında nümayəndəliyində ikinci katib olub. Bundan başqa, Xarici İşlər və Vergilər nazirliklərində müxtəlif vəzifələrdə çalışıb.

2014-2020-ci illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini olub. 2020-ci ilin yanvar ayından Beynəlxalq Əmək Təşkilatının Sakit okean hövzəsi ölkələri üzrə ofisinin direktoru olub.

İngilis, fransız, rus və ispan dillərini bilir.

Evlidir, 3 övladı var.

## UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin rəhbəri ilə görüş



Mayın 22-də elm və təhsil naziri Emin Əmrullayev BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası ilə BMT-nin Uşaq Fondu (UNICEF) arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və mümkün əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# QALİB ölkənin gəncləri

Xəbər verildiyi kimi, 8-13 may tarixlərində Türkiyənin Antalya şəhərində 40-cı Balkan Riyaziyyat Olimpiadası təşkil olunub. Həmçinin, Qazaxıstanın Astana şəhərində 57-ci Beynəlxalq Mendeleyev Olimpiadası (İMChO) keçirilib. Hər iki olimpiadada məktəblilərimiz uğurla çıxış edərək yüksək nəticə əldə ediblər. Qürur hissi ilə bildiririk ki, 40-cı Balkan Riyaziyyat Olimpiadasında 6 məktəbli ilə təmsil olunan komandamız 1 gümüş və 1 bürünc olmaqla ümumilikdə 2 medal və 3 həvəsləndirici mükafat qazanıb. Belə ki, FRİTL-in XI sinif şagirdi Cəlil Hüseynov gümüş, həmin liseyin XI sinif şagirdi Fidan Qarayeva bürünc medal əldə ediblər. FRİTL-in X sinif şagirdləri Səid Bəkirov, Ömər Qədimli və Türkiyə Dəyanət vəqfi Bakı türk liseyinin X sinif şagirdi Telman Məmmədov isə olimpiadanın həvəsləndirici sertifikatına layiq görülüblər. 20-dən çox ölkənin qatıldığı 57-ci Beynəlxalq Mendeleyev Olimpiadasında isə Türkiyə Dəyanət vəqfi Bakı türk liseyinin XI sinif şagirdi Dəniz Səttarlı bürünc medal qazanıb. Bundan əlavə, Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayülllü liseyin XI sinif şagirdi Həmid Xəlilova olimpiada təşkilatçıları tərəfindən xüsusi hədiyyə təqdim olunub. Medal qazanan hər bir məktəbli uğur hekayələrini, təəssüratlarını "Azərbaycan müəllimi"nə danışdılar.

### "Olimpiadalar mənim yol xəritəmi müəyyənləşdirib"



Dəfələrlə olimpiadalarda iştirak edərək ölkəmizi layiqincə təmsil edən məktəblimizin biri də FRİTL-in XI sinif şagirdi Fidan Qarayevadır. Onun riyaziyyata olan sevgisi biliklərinin dərinləşməsinə vəsilə olub. 10 yaşından etibarən həm yerli, həm də beynəlxalq olimpiadalarda iştirak edən Fidan ilk beynəlxalq medalını 13 yaşı olanda Avropa Qızlar Riyaziyyat Olimpiadasında qazanıb. O deyir ki, riyaziyyata olan marağının daha da artmasında atasının rolu böyükdür: "Atam mənə uşaqlıqdan bu elmə maraq yaradıb, mütəmadi mənimlə məşğul olub. Bu istək məni olimpiadalarda iştirak etməyimə sövq etdi və bu istiqamətdə bir çox uğurlar əldə etdim. 2019-cu ilin aprel ayında Kiyevdə keçirilən Avropa Qızlar Riyaziyyat Olimpiadasında bürünc medal qazanmışam və ilk dəfə olaraq Azərbaycana bu olimpiadadan medal gətirmişik. Onda məsələlərin birini çox uzun yolla həll etmişdim, həlli 11 səhifə yer tutmuşdu, məsələyə 3 saata yaxın vaxt sərf etmişdim. Cəmi 13 yaşım olsa da, məsələ qarşısında təslim olmamışdım. Heç vaxt gördüyüm işi çətinliyinə görə yarımçıq qoymamışam, ruhdan düşməmişəm. Şagirdlərə tövsiyəm odur ki, qarşılarına qoyduqları məqsəd üçün axıra qədər çalışsınlar, çətinliklərdən qorxub geri çəkilməsinlər. Əgər məqsəd olimpiadalarda uğur qazanmaqdırsa, buna görə bütün enerjilərini səfərbər etməlidirlər. Ümumiyyətlə, olimpiadalar mənim yol xəritəmi müəyyənləşdirib".

O, 2022-ci ildə Avropa Qızlar Riyaziyyat Olimpiadasında qızıl, Dünya Riyaziyyat Olimpiadasında bürünc, 2022-ci ildə Avropa Qızlar İnformatika Olimpiadasında bürünc, Respublika Fənn Olimpiadasında riyaziyyat və informatika fənni üzrə qızıl medala layiq görülüb. Cari ilin fevralın 1-12 tarixlərində Qazaxıstanın Almatı şəhərində onlayn formada təşkil olunan XIX Beynəlxalq Jautikov Olimpiadasında (İZhO) gümüş, 13-19 aprel tarixlərində Sloveniyanın Portoroz şəhərində keçirilən XII Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) qızıl medal qazanıb. Onu da qeyd edək ki, Fidan da Massaçusets Texnologiya İnstitutuna birbaşa qəbul alan şagirdimizdir.

### "Hər olimpiada mənə özünəinamı aşıladı"



Elə uşaq ikən elmə, təhsilə, araşdırmağa meyilli olan Dəniz Səttarlı Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdidir. IX sinifdən etibarən olimpiadalarda iştirak edib, ilk dəfə Respublika Fənn Olimpiadalarında qızıl medal qazanıb. Bununla da o, olimpiadada iştirak çevrəsini genişləndirərək, həm yerli, həm də beynəlxalq olimpiadalara qatılıb: "RFO-dan qızıl medal aldıqdan sonra Elm və Təhsil Nazirliyinin təşkil etdiyi dərslərə dəvət olundum, seçmə fənlərdə iştirak etdim. Olimpiadalara qatıldıqdan sonra məktəb proqramında tətbiq olunan oxuma vərdişlərini bir qədər dəyişdirməyə və daha çox çalışmağa ehtiyac olur. X sinifdə oxuyanda Respublika Fənn Olimpiadaları ilə yanaşı, beynəlxalq olimpiadalara da hazırlaşmağa başladım və 4 nəfərlik komandanın üzvlərindən biri seçildim. Bundan sonra daha böyük bir məsuliyyəti üzərimə götürmüş oldum. Belə ki, dünyadakı ən güclü uşaqlarla yaxşı səviyyədə yarışa bilmək üçün günün çox hissəsini olimpiada ilə məşğul oldum, bütün fikrimi ona fokusladım. Olimpiadalar mənə çox kömək oldu. Hər olimpiada mənim dünyagörüşümü artırdı, mənə məsuliyyəti və özünəinamı aşıladı".

Dəniz IX, X, XI siniflərdə kimya üzrə Respublika Fənn Olimpiadalarında iştirak edərək 3 qızıl medal qazanıb. O, eyni zamanda, 54-cü Beynəlxalq Kimya Olimpiadasında, 2021-ci ilin dekabrında Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında və digər olimpiadalarda iştirak edərək müvəffəqiyyət əldə edib. Bu yaxınlarda Qazaxıstanın Astana şəhərində 20-dən çox ölkənin iştirak etdiyi 57-ci Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında (IMChO) Dəniz Səttarlı bürünc medal qazanaraq ölkəmizi layiqincə təmsil etmişdir. O deyir ki, medal olimpiadada iştirakın kiçik bir hissəsidir: "Burada önəmli olan dostlar qazanmaq, xarici ölkələrə səfər etmək, növbəti yarışlar üçün daha yüksək səviyyədə hazırlaşmaqdır. Hər olimpiadada biz iştirakçı olaraq zəif cəhətlərimizi öyrənir, onların üzərində daha da ciddi çalışırıq. Bu da bizim növbəti yarışlarda bu istiqamətləri təkmilləşdirməyə şərait yaradır".

Onu da qeyd edək ki, Dəniz Səttarlı Massaçusets Texnologiya İnstitutuna (Massachusetts İnstitute of Technology) birbaşa qəbul alan məktəblimizdir. O, təhsilini kimya mühəndisliyi üzrə davam etdirməyi düşünür.

### "Olimpiadalarda yaxşı təcrübə qazandım"



VI sinfə qədər Bakı şəhəri 90 nömrəli tam orta məktəbdə təhsil alan, VII sinifdən etibarən Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseydə təhsilini davam etdirən XI sinif şagirdi Cəlil Hüseynov 5 ilə yaxındır ki, riyaziyyat olimpiadalarına hazırlaşdığını, həm yerli, həm də beynəlxalq yarışların bir çoxunda uğur qazandığını bildirib. O, bir müddət öncə dünya sıralanmasında ümumilikdə 11, qəbul olduğu "Kompüter elmləri" ixtisası üzrə 6-cı yerdə olan Sinqapur Milli Universitetinə (National University of Singapore) qəbul olub.

Olimpiadaların insana daim bir-birinə dəstək olan, eyni zamanda bir-biri ilə rəqabətdə olan bir mühitin yaratdığını deyən Cəlil sözlərinə əlavə edib: "Olimpiadalarda iştirakım mənə yaxşı təcrübə qazandırıb və bu da növbəti olimpiadalarda daha yaxşı iştirakım üçün mənə stimul olub. Olimpiadalar hər şeydən öncə məni yaxşı bir cəmiyyətin üzvü etdi. İstər yerli, istərsə də beynəlxalq olimpiadalarda maraqlı insanlar tanıdım, əhatə dairəmi böyütdüm".

Cəlil Hüseynov bir çox yerli və beynəlxalq olimpiadalarda uğurla çıxış edib. Belə ki, o, 2020, 2021, 2022-ci illərdə Respublika fənn olimpiadalarında riyaziyyat fənni üzrə 1 bürünc, 2 qızıl medal qazanıb. 2021-ci ildə təşkil olunan Qafqaz Riyaziyyat Olimpiadasında (CMO) və Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında (JBMO) qızıl, 2022-ci ildə Balkan Riyaziyyat Olimpiadasında (BMO) gümüş, 2022-ci ildə Beynəlxalq Riyaziyyat Olimpiadasında (İMO) bürünc, 2022 və 2023-cü illərdə keçirilən Beynəlxalq Jautikov Olimpiadalarında (İZhO) isə bürünc medala layiq görülüb.

**Tünzalə QULİYEVA**

# BDU və İsrailin Yerusəlim İbrani Universiteti arasında ikili diplom proqramı üzrə müqavilə imzalanıb

Mayın 24-də Bakı Dövlət Universiteti (BDU) və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında ikili diplom proqramı və birgə tədqiqat üzrə əməkdaşlıq müqavilələrinin imzalanması mərasimi keçirilib.




**Bu proqram Azərbaycan-İsrail münasibətlərini daha da irəli aparacaq və hər iki universitet üçün uğurlu olacaq**




Mərasimdə açılış nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, ikili diplom proqramı hər iki universitet üçün böyük elmi nailiyyətlər və beynəlxalq əməkdaşlığın yeni dövrünün başlanğıcı olacaq. Əməkdaşlıq vasitəsilə BDU-nun tələbələri İsrailin tanınmış professor-müəllim heyəti və mütəxəssisləri ilə birbaşa çalışacaq, biliyi mənbəyində əldə edəcəklər. Sözügedən proqram tələbələrin akademik təcrübəsini artırmaqla yanaşı, mədəni mübadilə və beynəlxalq şəbəkələşmə üçün də yeni imkanlar yaradacaq.

Mərasimdə iştirak edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, adıçəkilən layihə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na əsasən həyata keçirilir. Dövlət Proqramının ikili diplom proqramları üzrə ikinci istiqamətinə uyğun olaraq bu illər ərzində ölkənin bir neçə ali məktəbi ilə müxtəlif ölkələrin universitetləri arasında ikili diplom proqramları imzalanıb. Həmin proqramlara əsasən indiyədək 1000-dən çox Azərbaycan vətəndaşı ölkədən ayrılmadan dünyanın ən qabaqcıl universitetlərinin diplomunu əldə edib.



Nazir qeyd edib ki, BDU və Yerusəlim İbrani Universiteti arasında imzalanan ikili diplom proqramı Azərbaycan tələbələri, cəmiyyəti, iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. Bu proqram Azərbaycan-İsrail münasibətlərini daha da irəli aparacaq və hər iki universitet üçün uğurlu olacaq.

Təhsil İnstitutunun direktoru Rüfət Əzizov öz növbəsində məlumat verib ki, layihə 3 istiqamətdən ibarətdir. Birinci istiqamət ikili diplom üzrə magistr proqramını əhatə edir. İkinci istiqamətdə hər iki universitetin gənc tədqiqatçı və tələbələrinin iştirakı ilə birgə tədqiqatların aparılması əks olunur. Proqram çərçivəsində 5 il müddətində 10 layihə həyata keçiriləcək və hər bir layihə 4 il davam edəcək. Layihənin üçüncü istiqaməti isə biotexnologiya sahəsində doktorantura təhsili ilə bağlıdır.

Yerusəlim İbrani Universitetinin beynəlxalq məsələlər üzrə vitse-prezidenti, professor Oron Şaqrir isə vurğulayıb ki, layihə hər iki universitetin tələbələrinə birgə tədqiqat aparmaq və beynəlxalq təcrübə qazanmaq imkanı verəcək.

Mərasimdə çıxış edən Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev isə proqramın iki xalqın müttəfiqlik münasibətlərini daha da gücləndirəcəyini bildirib.

Sonra universitetlər arasında ikili diplom proqramı və birgə tədqiqat üzrə əməkdaşlıq müqavilələri imzalanıb.

İmzalanma mərasimindən sonra Bakı Dövlət Universitetində Heydər Əliyev muzeyi və lektoriyasının əsaslı yenidənqurmadan sonra açılış mərasimləri keçirilib.

# Heydər Əliyev və Azərbaycanın neft strategiyası

## Beynəlxalq elmi- praktik konfransdan qeydlər



Mayın 24-də “Holiday Inn Baku” otelində Elm və Təhsil Nazirliyinin Neft və Qaz İnstitutunun təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan neft strategiyası: neft-qaz geologiyası və geotexnologiyalarında irəliləyişlər” mövzusunda beynəlxalq elmi-praktik konfransın açılış mərasimi keçirilib.

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Elm və Təhsil Nazirliyinin tabeliyində olan bir sıra elmi müəssisələrin baş direktorları, əməkdaşları, Milli Məclisin deputatları, SOCAR-ın nümayəndələri, Türkiyə, Gürcüstan, Özbəkistan, Türkmənistan, İsrail, Qazaxıstan, Rusiya, Tacikistan və digər ölkələrdən alimlər iştirak ediblər.

Mərasimdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirov açaraq Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının bir neçə mərhələdən ibarət olduğunu, ilkin mərhələdə, yəni Ulu Öndərin ölkəmizə rəhbərlik etməyə başladığı 1969-cu ildən etibarən Xəzərdə aparılan geoloji-kəşfiyyat, qazma işləri nəticəsində Azəri-Çıraq-Günəşli kimi dərinliklərdə yerləşən zəngin neft yataqlarının kəşf olunduğunu söyləyib. Qeyd olunub ki, Ümummilli Lider bu mərhələdə görülən işlərin gələcəkdə müstəqil Azərbaycanın iqtisadiyyatının əsasını təşkil edəcəyini bilirdi və buna uyğun addımlar atırdı. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqilliyin ilk illərində neft strategiyasını həyata keçirərkən bir çox çətinliklərlə üzləşdiyini deyən akademik Fəxrəddin Qədirov keçmiş Sovet İttifaqı ölkələri ilə iqtisadi əlaqələrin qırılması, ölkə ərazisində olan böhran və investisiya çatışmazlığının həmin illərdə başlıca problemlər olduğunu vurğulayıb.

Ümummilli Liderin “Neft Azərbaycanın milli sərvətidir” devizini əsas tutaraq xarici neft şirkətlərini ölkəmizə dəvət etdiyini deyən akademik, yeni neft strategiyasının işlənib hazırlandığını diqqətə çatdırıb. Bildirilib ki, məhz həmin dövrdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev yeni neft strategiyasının hazırlanması və uğurla həyata keçirilməsində ən fəal iştirakçılardan oldu.

Akademik çıxışında qeyd edib ki, 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi”ni Ulu Öndər ölkəmizin suverenliyinin qarantı və iqtisadiyyatımızın inkişaf etdirilməsinin əsas faktoru olduğunu bəyan etdi, 1999-cu ildə isə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin çəkilişi haqqında müqavilə imzalandı.

Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyən F.Qədirov 2017-ci ildə Azəri-Çıraq-Günəşli yatağının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişinin 2056-cı ilə qədər uzadıldığını vurğulayıb.

Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində Musa Əliyev, Şəfaət Mehdiyev, Xoşbəxt Yusifzadə kimi alimlərin xüsusi rolu olduğunu diqqətə çatdıran akademik Fəxrəddin Qədirov müstəqillik illərində isə Geologiya və Geofizika İnstitutunun bu sahədə fərqləndiyini söyləyib.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli neft strategiyası mövzusunun Heydər Əliyev və Azərbaycan dövlətçiliyi probleminin ana xətlərini müəyyən edən strateji əhəmiyyətə malik bir məsələ olduğunu bildirib. Qeyd edib ki, Heydər Əliyevin şəxsiyyətinin və onun gördüyü işlərin miqyası o qədər geniş, çoxşaxəlidir ki, bütün bunlar elmi araşdırmalar aparmağa, monoqrafiyalar yazmağa, dissertasiyalar müdafiə etməyə, ümumiləşdirmələr aparmağa tam əsas verir: “Bütün bunlarla bərabər hesab edirəm ki, Heydər Əliyev və neft strategiyası, Heydər Əliyev və Azərbaycan nefti məsələsi bu mövzuların içərisində əsas yer tutur. Heydər Əliyevin neft strategiyası Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi həm birinci mərhələdə, həm də ikinci mərhələdə inkişafla, yüksəlişlə bağlıdır. Heydər Əliyev Azərbaycan neftindən xalqımızın milli maraqlarına uyğun şəkildə istifadə etmək siyasətini həyata keçirmişdir”.

AMEA rəhbəri daha sonra bildirib ki, Ulu Öndər SSRİ dövründə Azərbaycanda neft emalı sənayesini bərpa etməklə və miqyasını genişləndirməklə ölkədən xam neft ixracının payını qat-qat azaltmağa nail olmuş, apardığı siyasət nəticəsində neft hasilatı bir neçə dəfə artmış və ölkəmizə düşən pay əvvəlki illərdən çox olmuşdur.

Ölkəmizin müstəqilliyinin ilk illərində üzləşdiyi çətin iqtisadi böhran barədə də danışan akademik İsa Həbibbəyli Ulu Öndərin diplomatik bacarığı, uzaqgörənliyi, dəmir iradəsi sayəsində imzalanmış “Əsrin müqaviləsi” ilə xarici investorları ölkəmizə gətirdiyini, hasilatın pay bölgüsü ilə Azərbaycan neftindən xalqımızın mənafeyi naminə istifadə etməyi bacardığını söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyevin Ulu Öndərin cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, neft strategiyası istiqamətində də atdığı bütün addımları böyük bacarıqla, möhkəm iradə ilə inkişaf etdirdiyini vurğulayan AMEA rəhbəri həmin zəmin əsasında ölkə başçısının yeni neft epoxasını formalaşdırdığını, TANAP, TAP, “Cənub Qaz Dəhlizi” və digər beynəlxalq layihələrin həyata keçirildiyini bildirib: “Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsas rol oynayır və neftin, qazın satışından əldə olunan gəlir ölkəmizdə qeyri-neft sektorunun inkişafına, ən əsası isə insan kapitalına yatırılır”.

Sonra Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru akademik Akif Əlizadə çıxış edərək tədbirdə bir çox ölkədən qonağın iştirak etməsini Azərbaycanın neft strategiyasının dünyanın diqqətində olmasının göstəricisi kimi dəyərləndirib. Ulu Öndərin 1969-cu ildə respublika hakimiyyətinə gəldikdən sonra Azərbaycanın neft strategiyasında əsaslı dönüşün baş verdiyini deyən akademik Akif Əlizadə həmin dövrdə Heydər Əliyevin atdığı addımların Azərbaycanın neftini qorumaq və gələcək nəsillərə saxlamaq məqsədi daşıdığını söyləyib. Qeyd edib ki, Ümummilli Liderin SSRİ-nin aparıcı ali təhsil və elm ocaqlarında təhsil almağa göndərdiyi gənclər arasında neft üzrə mütəxəssislər də vardı. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanarkən Azərbaycanın investisiya qoymağa imkanı olmadığını xatırladan akademik Akif Əlizadə məhz Ulu Öndərin məharəti və nüfuzunun bu müqavilənin həyata keçirilməsində mühüm rol oynadığını deyib.

SOCAR-ın baş geoloqu Arzu Cavadova isə təmsil etdiyi qurum tərəfindən aparılan neft strategiyasından danışıb. Bildirib ki, bu gün SOCAR-da neft-qaz-kondensatından əlavə, bərpa olunan alternativ enerji mənbələri üzrə də işlər davam etdirilir.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin neft strategiyasını əks etdirən film nümayiş olunub.

Konfransda, həmçinin AMEA-nın müşaviri akademik Yaqub Mahmudov “Azərbaycanın dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyəti”, Neft və Qaz İnstitutunun professoru Vaqif Kərimov və Serqo Orconikidze adına Rusiya Dövlət Geoloji Kəşfiyyat Universitetinin əməkdaşı Ulyana Serikova “Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev - Azərbaycanın neft strategiyası konsepsiyasının müəllifidir”, AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev, Neft və Qaz İnstitutunun elmi katibi Şəlalə Hüseynova və şöbə müdiri Namaz Yusubov “Karbohidrogen sistemləri və palçıq vulkanizmi: paragenezis və ya birgə inkişaf”, Türkiyənin Dokuz Eylül Universitetinin professoru Günay Çiftci “Yeni oyun dəyişdiricisi: dəniz qaz hidratları”, Milli Məclisin deputatı akademik Ziyad Səmədzadə “Heydər Əliyevin ideyaları və Azərbaycanın iqtisadiyyatının davamlı, keyfiyyətli inkişafı” mövzularında məruzələrlə çıxış ediblər.

Öz işini elmi sessiyalarla davam etdirən konfrans mayın 25-də başa çatıb. Mayın 26-da isə konfrans iştirakçıları palçıq vulkanları olan ərazilərə ekskursiyaya gedəcəklər.

**Samirə KƏRİMOVA**

# “Sözdən əmələ: Maraqlı tərəflərlə qarşılıqlı əlaqə”



## Təhsilin İnkişafı Fondu “dəyirmi masa”da iştirak edib

Azərbaycan Tibb Universiteti (ATU) tərəfindən təşkil edilən konsultativ xarakterli görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişafı Fondu, dövlət və özəl xəstəxanaları, iri klinikalar və tibb xidmətləri sferasındakı bir sıra qurumların rəhbərləri iştirak ediblər. Görüşün məqsədi ATU məzunlarının məşğulluğunun təmin olunması ilə bağlı fikir mübadiləsinin keçirilməsi olub.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli açılış nitqində qeyd edib ki, ali məktəbin əsas missiyaları sırasında keyfiyyətli təhsil verilməsi ilə yanaşı, əmək bazarında uğurla fəaliyyət göstərən, insanların sağlamlığının keşiyində duran və ictimaiyyətə böyük elmi və praktiki töhfə verən məzunların hazırlanması da daxildir. ATU məzunlarının işlə təmin olunması üçün maraqlı tərəflərin nümayəndələri ilə müzakirələrin aparılması önəmlidir.

Daha sonra çıxış edən ATU-nun İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva “Sözdən əmələ: Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” mövzusunda təqdimatla çıxış edərək bir sıra statistik məlumatları açıqlayıb.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov çıxış edərək ali təhsil müəssisələrinin əsas göstəricilərindən biri kimi məzunların əmək bazarında işlə təmin olunmasını qeyd edib. Bu istiqamətdə təhsil müəssisələrinin işəgötürənlər və sənaye ilə qarşılıqlı əməkdaşlığının vacibliyi vurğulanıb. Ali təhsil müəssisələrində Himayədarlar Şuralarının yaradılması və burada işəgötürənlərin nümayəndələrinin iştirakı, eləcə də TİF tərəfindən sənaye və universitet işbirliyi mərkəzlərinin yaradılması təklif olunub.

Tədbirdə Səhiyyə Nazirliyi, TƏBİB və digər qurumların nümayəndələri çıxış edib. Qeyd olunub ki, ATU tələbələrinin müvafiq bacarıq və məşğuliyyət imkanlarının yaxşılaşdırılması üçün tədris proqramının və fənlərin inkişafı və yenilənməsi, rəqabətədavamlılığın və innovasiyaların dəstəklənməsi və digər məsələlərlə bağlı müzakirələrin aparılmasına ehtiyac var.

Görüş iştirakçıları yerli, regional və milli səviyyələrdə bacarıq və kadr çatışmazlığı probleminin həll edilməsi üçün bacarıqların formalaşdırılması, məşğulluq, təhsil və sosial təminat sahəsində yaranan tələbat əsasında yeni ixtisaslarla bağlı təkliflərin hazırlanması mövzusuna dair təklif və fikirlərini bölüşüblər.

# 2023 – “Heydər Əliyev İli”

**“Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik”.**

Heydər Əliyev vətənpərvərliyin təkcə Vətən, yurd sevgisi ilə məhdudlaşmadığını qeyd edərək onun məzmununa, ilk dəfə olaraq, milli vətənpərvərlik anlayışını da daxil etmiş, gənclərimizi milli ruhda tərbiyələndirməyi vacib saymışdır: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”. Heydər Əliyev bu keyfiyyətlərə ana dilimizi – Azərbaycan dilini sevməyi, mükəmməl öyrənməyi də əlavə edərək gənclərimizə tövsiyə edirdi ki, “Öz ana dilimizi – Azərbaycan dilini yaxşı mənimsəmək lazımdır, bu dili sevmək lazımdır. Çünki öz dilini bilməyən adam öz tarixini yaxşı bilməyəcək, bizim ədəbiyyatımızı, mədəniyyətimizi, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır”. Ulu Öndər “Müstəqil Azərbaycanın gələcəyi gənclərdir” mövzusunda söylədiyi nitqində fikrinə yekun vuraraq göstərir ki, ümidvaram, bizim gənclərimiz tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mükəmməl mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaşadacaqdır. Heydər Əliyevin milli vətənpərvərlik ideyası milli-mənəvi tərbiyənin mühüm tərkib hissəsi kimi daha geniş məzmuna malikdir. Ulu öndər gənclərə müraciət edərək deyirdi: “Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir”.



**“Biz Azərbaycan gəncləri kimi böyük potensial, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq”.**

Şəxsiyyətlər var ki, tarix onları yetişdirir. Şəxsiyyətlər də var ki, onlar özləri tarix yaratmağı bacarır. Onlar mənsub olduğu cəmiyyəti düşünən, onun varlığı və xoşbəxtliyinin qorunması yolunda həyatlarını belə verən, xalqına sədaqətlə xidmət edən insanlardır. Zaman keçdikdə bu insanlar bir nəsil üçün deyil, neçə-neçə nəsillər üçün örnək və nümunə kimi həyat məktəbinə çevrilirlər. Heydər Əliyev xalqımızın Azərbaycana bəxş etdiyi məhz belə şəxsiyyətlərdəndir. Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, milli dövlətçiliyimizin memarı və qurucusu, yüksək təşkilatçılıq və idarəçilik qabiliyyəti, işgüzarlığı, təşəbbüskarlığı, güclü məntiqi, qüdrətli zəkası ilə seçilən görkəmli dövlət xadimi, təhsil quruculuğu strategiyasının ideya müəllifidir. Belə bir qüdrətli dövlət başçısının və dahi şəxsiyyətin nümunəsində müasir gənclərin tərbiyəsi onları azərbaycançılıq ideyalarını yaşadan vətəndaş kimi yetişdirməyə kömək edir. Gənclik cəmiyyətin aparıcı qüvvəsi, dövlətin gələcəyinin təminatına zəmanətdir. Gəncliyin hərtərəfli və harmonik inkişafı bu gün başlıca məqsəddir. Hər bir dövlətin və millətin tərəqqisində gənc nəslin təhsili və tərbiyəsi müstəsna əhəmiyyət kəsb edir. Ölkənin, xalqın gələcəyi, cəmiyyətin inkişafı və tərəqqisi bugünki gənclərin kimliyindən, onların bilik, bacarıq, dünyagörüşünün səviyyəsindən, eyni zamanda gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır. Azərbaycan Respublikası Gənclərinin I Forumunda Heydər Əliyevin nitqində gənc nəslə ünvanladığı dəyərli tövsiyələrində və nəsihətlərində atalıq qayğısı, gəncliyimizin parlaq gələcəyinə olan inamı özünü büruzə verir: “Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

## Ümummilli Liderin milli vətənpərvərlik konsepsiyası

⇦ Əvvəli səh.1

Ulu Öndərə görə, bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcək və şübhəsiz ki, ölkənin ictimai-siyasi həyatında, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir. Ümummilli Lider Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında insanın Vətənə, xalqa, millətə, dövlətə, insana, milli-mənəvi dəyərlərimizə hörmət və sevgi hissi sədaqətlilik hissi ilə qırılmaz vəhdət təşkil edir və tərbiyə işində vacib bir tələb kimi nəzərə alınmalıdır.

Ulu Öndər Heydər Əliyevin milli tərbiyə ilə bağlı nəzəri-pedaqoji irsində vətənpərvərlik və Azərbaycançılıq ideyaları sıx birləşir; azərbaycançılıq hissi Azərbaycan sevgisində, Ana Vətənə məhəbbətdə təzahür edir. “Azərbaycanı sevmək – azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir” kimi səciyyələndirən Heydər Əliyev bunu onunla əsaslandırırdı ki, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlılardır, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır, onlar da Azərbaycanla bağlı olmalıdırlar. Ulu Öndər əlavə edirdi ki, Azərbaycan dövləti yaşadıqca, inkişaf etdikcə, böyüdükcə bütün dünyada yaşayan azərbaycanlılar bizim müstəqil Azərbaycanla əlaqəni daha da artıracaq, inkişaf etdirəcək, hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq özünü azərbaycanlı kimi dərk edəcəkdir.

Ulu Öndərin böyük inamla, uzaqgörənliklə ifadə etdiyi bu sözlər artıq özünü doğrultmuşdur. Ümummilli Liderimiz Heydər Əliyevin və onun milli dövlətçilik kursunu, azərbaycançılıq ideyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin apardıqları müdrik dövlətçilik, uğurlu xarici siyasət, diplomatiya və diaspora fəaliyyəti sayəsində dünya azərbaycanlıları Azərbaycançılıq ideyası ətrafında sıx birləşərək müstəqil Azərbaycanın inkişafı, möhkəmlənməsi naminə həmrəylik göstərir, birgə mübarizə aparırlar. Ulu Öndərin “azərbaycançılıq” ideyası dünya azərbaycanlılarının fəal mübarizəsində bundan sonra da qiymətli ideoloji proqram rolunu oynayacaqdır.

Milli vətənpərvərlik heç də dünya azərbaycanlılarının doğma Vətən sevgisi, həmrəyliyi ilə məhdudlaşmır. Heydər Əliyevin milli vətənpərvərlik ideyası həm də Azərbaycanda yaşayan bütün millətlərin birliyini, həmrəyliyini, doğma Vətənə – Azərbaycana sevgi və sədaqətini nəzərdə tutur. Ulu Öndər bu münasibətlə deyirdi: “Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma Vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik. Mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda millətlər arasında olan əlaqələr dostluq əlaqələridir, bir-birinə hörmət, ehtiram əlaqələridir və biz bu əlaqələri inkişaf etdirəcəyik, yaşadacağıq, qoruyub saxlayacağıq”. Ulu Öndər bunu Azərbaycanın çoxmillətli, çoxdilli ölkə kimi xüsusiyyətləri ilə izah edir və göstərir ki, Azərbaycanın bu xüsusiyyətlərini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir. Azərbaycançılıq ideyası təkcə Azərbaycandakı Azərbaycan etnosunu əhatə etmir, həm də orada yaşayan bütün millətləri, milli azlıqları birləşdirir.

Fəxrlə demək olar ki, Azərbaycanda yaşayan bütün millətlər (ermənilər istisna olmaqla) azərbaycanlılarla həmrəylik şəraitində yaşamış, Vətənin çətin anlarında – I Qarabağ və Vətən müharibəsində döyüşlərdə iştirak etmiş, bir qismi isə böyük şücaət göstərərək orden və medallarla təltif edilmişlər. Bunu Ulu Öndər Heydər Əliyevin və onun layiqli siyasi varisi İlham Əliyevin uğurlu milli dövlətçilik, milli birlik və həmrəylik siyasəti ilə izah etmək olar.

Ümummilli Liderimiz Heydər Əliyevin milli dövlətçilik və vətənpərvərlik ideologiyasının mühüm komponentlərindən biri də dövlət rəmzləri ilə bağlıdır. Azərbaycanın dövlət rəmzlərinə – bayraq, gerb və himninə hörmət və ehtiram hisslərinin aşılanması milli tərbiyə, o cümlədən – vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir. Ulu Öndər respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə söylədiyi nitqində (31 avqust 1999-cu il) bu məsələdən bəhs edərək demişdir: “Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir”. Ulu Öndər dövlətçilik rəmzlərinin tətbiqi ilə bağlı öz mülahizələrini də bildirmişdir. Dövlət himni ilə bağlı deyirdi ki, himnimizi dinləmək yox, oxumaq lazımdır. Himn çalınan vaxt insanlar bu himnin sözlərini oxumalıdırlar, bunun əhəmiyyəti var; bir var ki, onu dinləyəsən, bir də var ki, o mahnının, musiqinin sədaları altında o sözləri oxuyasan. “Bunlar da insanlarda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə kömək edir. Eyni zamanda bu, ona görə vacibdir ki, himnimizə xüsusi hörmətin təzahürüdür”. Ulu Öndər bütün məktəblərin – ali və orta məktəblərin şagird, tələbə və müəllimlərinin Azərbaycanın himnini oxumalarını, həm də xorla, ayaq üstdə oxumalarını təşkil etməyi bir vəzifə kimi qoymuşdur.

Bayrağımıza münasibətdə Heydər Əliyev deyirdi ki, “Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun”. Ulu öndər tövsiyə edirdi ki, gərək Azərbaycan dövlətinin bayrağı tək rəsmi yerlərdə, məktəblərdə yox, hər bir evdə olsun, hər bir ailənin əziz bir hissəsi olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin.

Dövlət rəmzləri ilə bağlı Ulu Öndər Heydər Əliyevin proqram xarakterli görüşləri vətəndaşlarımızda, xüsusən gənclərdə milli vətənpərvərlik və azərbaycançılıq hisslərinin, Vətənə, millətə, xalqa, dövlətimizə sevgi və sədaqət ruhunun tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir, təhsil-tərbiyə işinin müstəqil dövlətçilik prinsiplərinə uyğun qurulmasına xidmət göstərir. Bu baxımdan, Ümummilli Liderin milli dövlətçilik rəmzlərinin mahiyyəti və tətbiqi ilə bağlı irəli sürüb əsaslandırdığı konseptual fikir və tövsiyələrin təhsil müəssisələrində sistemli öyrənilməsi gənclərin dövlətçilik, milli vətənpərvərlik ruhunda tərbiyəsində əvəzsiz rol oynayır.

Azərbaycanda dövlət atributlarının təbliği və tədrisi işini gücləndirmək, sistemli şəkildə qurmaq məqsədilə Heydər Əliyev 1998-ci il martın 13-də “Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında” Sərəncam imzaladı. Bu sərəncam Ulu Öndərimizin milli müstəqillik və dövlətçiliyimizin rəmzlərinin ölkə vətəndaşları, xüsusən Azərbaycan gəncliyi tərəfindən dərindən öyrənilməsinə nə dərəcədə yüksək qiymət və əhəmiyyət verdiyinin əyani sübutudur.

Gənc nəslin milli ruhda, vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində Ümummilli Liderin konseptual görüşlərinin, qiymətli fikirlərinin həyata keçirilməsində məktəbin, müəllimin böyük rolu vardır. Onların üzərinə mühüm vəzifələr düşür. Tərbiyə işinə, o cümlədən, vətənpərvərlik tərbiyəsinə kiçik yaşlardan başlamağın vacibliyini qeyd edən Ulu Öndər deyirdi ki, “Vətənpərvərlik hissləri insanlara uşaq vaxtından aşılanmalıdır. Xalqımızın təbii xüsusiyyəti ondan ibarətdir ki, xalqımız vətənpərvərdir. O, ana bətnində vətənpərvərlik hisslərini özündə toplayır”.

Heydər Əliyev gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanmasında tədrisin, tərbiyənin rolunu yüksək qiymətləndirir və deyirdi ki, tədrisin, tərbiyənin bu sahədə çox böyük əhəmiyyəti vardır, xalqımızı, millətimizi, gənclərimizi vətənpərvərlik hissi ilə tərbiyə etmək təhsilin əsas istiqaməti, hissəsi, məktəblərimizin, müəllimlərimizin borcudur. Ulu Öndər uşaqlara hərtərəfli təhsil verməyi, orta məktəblərdə keçilən bütün fənləri mənimsətməyi vacib sayırdı. Bunların hamısı ilə bərabər o, qeyd edirdi ki, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur.

Ümummilli Lider təhsillə yanaşı gəncləri vətəndaş kimi gələcəyə hazırlamağı məktəbə, müəllimə tövsiyə edirdi. Respublika təhsil işçiləri ilə görüşündəki niqtində (31 avqust 1999-cu il) o müəllimlərə müraciətlə deyirdi: “İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşalara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır. Gərək hər bir insan eyni zamanda həm də vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır”.

Ulu Öndər uşaq və gənclərin düzgün tərbiyəsi üçün, vətənpərvərlər kimi formalaşması üçün məktəbdə mənəvi saflıq, düzlük, ədalət mühiti yaratmağı, müəllimlərin, tərbiyəçilərin əsl vətənpərvərlik nümunəsi göstərmələrini vacib hesab edirdi: “Biz müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq. Bu gənc gərək mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq orta məktəblərdə və ali məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bunların hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır”.

Ümummilli Liderimiz Heydər Əliyevin milli dövlətçilik, milli müstəqillik ideyaları, milli tərbiyə, milli vətənpərvərlik konsepsiyası, zəngin nəzəri irsi, şəxsi nümunəsi və dövlətçilik fəaliyyəti gənc nəslin vətənpərvərlik, azərbaycançılıq ruhunda, milli və ümumbəşəri dəyərlər zəminində tərbiyəsi baxımından qiymətli mənbədir. Müstəqil Azərbaycan gənclərinin vətəndaşlıq, şəxsiyyət bütövlüyü və kamillik örnəyi olan bu zəngin mənbəni dərindən öyrənmək, gənc nəslin vətənpərvərlik, azərbaycançılıq və Heydər Əliyev nümunəsində tərbiyəsi işində geniş istifadə etmək lazımdır.

**Məcid İSMİXANOV,**
*BDU-nun pedaqogika kafedrasının professoru*

## Heydər Əliyev şəxsiyyəti müasir Azərbaycan gənclərinə örnəkdir

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. ...Gənclər xalqımızın milli ənənələri, milli-mənəvi dəyərləri əsasında tərbiyələnməlidir. Gənclərin tərbiyə edilməsində, təhsillənməsində eyni zamanda ümumbəşəri dəyərlərdən istifadə olunmalıdır. Milli-mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşlarımızın və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir”.

Heydər Əliyevin həyat və fəaliyyəti nümunəsində müasir gənclik Vətənə sədaqət və məhəbbət, millətini sevmək və ucaltmaq, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirmək, respublikanın müstəqilliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə olunur, geniş dünyagörüşünə malik olmaqla özünü daim inkişaf etdirmək bacarığına yiyələnir. Müasir gəncliyin yeni təfəkkürə malik şəxsiyyət kimi formalaşmasında Heydər Əliyevin söz qüdrəti, diplomatik şücaəti, aydın və səlis nitqi böyük rol oynayır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycan dilinə göstərdiyi diqqətdir. O, dilimizin söz ehtiyatlarına, fikri ifadə etmək imkanlarına görə zəngin olduğunu dəfələrlə qeyd etmiş, ana dilimizi müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvəti kimi dəyərləndirmişdir: “Hər bir xalqın milliliyni, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur”. Ulu Öndərin bu müdrik sözləri ana dilini sevmək, dəyərləndirmək və təbliğ etmək istiqamətində bir çağırışdır.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə ölkənin prioritet sahələrindən biri olan təhsilin davamlı inkişaf etdirilməsinə, onun forma və məzmununun yenilənməsinə, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə, gənc nəslin tələblərə müvafiq yüksək səviyyədə formalaşdırılmasına, təhsil islahatlarının həyata keçirilməsinə də diqqət göstərmişdir. Məhz Ulu Öndərin təşəbbüsü və qayğısı sayəsində keçmiş SSRİ-nin 50-yə yaxın şəhərlərinin 170-dən çox ali məktəblərində 250 ixtisas üzrə 15 min azərbaycanlı gəncin təhsil almasına şərait yaradılmışdır. Gənc nəslin proqressiv təhsilə yiyələnməsi, onların elmi cəhətdən potensial imkanlarının təmin edilməsi böyük liderin uğurlu siyasətinin tərkib hissəsi idi.

Heydər Əliyev Azərbaycan elminin inkişafına xüsusi qayğı ilə yanaşır, görkəmli alimlərimizin xidmətlərini daim dəyərləndirirdi. O qeyd edirdi ki, gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır. Heydər Əliyev Azərbaycanın güclü elmi potensialının olmasını zəruri hesab edir, elm və cəmiyyətin tərəqqisində gənclərin rolunu xüsusi vurğulayırdı.

Heydər Əliyev şəxsiyyətinin nümunəsi gənclər üçün mənəvi məktəbdir. Gənclər bu böyük şəxsiyyətin keçdiyi həyat yolunu öyrənərək, Azərbaycanın qüdrətli rəhbərinin fərdi xüsusiyyətlərindən mənəvi tərbiyə almış olurlar, vətən, xalq və millət sevgisinin, eləcə də qəhrəmanlığın, müdrikliyin, dərin zəkalı insanın, millət atasının, dünyaşöhrətli siyasi xadimin və dövlət başçısının – fenomen insanın böyüklüyünü dərk edirlər.

Dahi insanlara xas bütün keyfiyyətlərə məxsus, vətən məfkurəsini hər şeydən üstün tutan Heydər Əliyev nümunəsi gənclərə təfəkkür dərinliyi, ideya aydınlığı, yaradıcılıq fəaliyyəti, özünüinkişaf və özünütəkmilləşdirməyə maraq, işgüzarlıq və məsuliyyətlilik təlqin edir. Azərbaycan tarixində parlaq səhifələr açmış, xalqına məhəbbət dolu ürəyə sahib olan bu qüdrətli şəxsiyyət gəncliyin qüruru və vüqarıdır.

Ulu Öndər Heydər Əliyev tərəfindın əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, intellektual, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsi, istedadlı gənclərin üzə çıxarılması, hüquqlarının müdafiəsi və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Gənclərin humanizm, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, xalqımızın tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, həmçinin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, eləcə də cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların intellektual və yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması gənclər siyasətinin əsas prinsiplərindəndir.

Heydər Əliyev gənclərin idrak və təfəkkürünə yeni rövnəq verir. Bu rövnəq isə onları müdrik rəhbərin, nüfuzlu siyasət liderinin davamçısı kimi xoşbəxt, işıqlı gələcəyə səsləyir. Heydər Əliyev öz mənalı həyat yolu ilə gənclərə mübariz keyfiyyətlər aşılayır, onları müstəqil Azərbaycanın vətənpərvər övladları kimi tərbiyə edirdi.

Onun “mənən zəngin olun, tariximizi, ədəbiyyatımızı, dinimizi, incəsənətimizi sevin, dərindən öyrənin və qoruyun” – ifadələri gənclərin həyat örnəyi olacaq, əql və zəkalarını işıqlandıracaq, yollarında məşəl kimi yanacaqdır.

Tükənməz iradə, yüksək intellektual potensiala və güclü hafizəyə malik görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan gəncliyinə örnək olmaqla, ölkənin gələcək inkişaf yollarını göstərməklə böyük bir məktəb yaratmışdır. Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev onun yolunu uğurla davam etdirir, Azərbaycan gəncliyinə böyük etimad göstərir, onların hərtərəfli inkişafına dəstək olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gənclər Siyasəti üzrə Birinci Qlobal Forumundakı (28-30.10.2014-cü il) çıxışında qeyd etmişdir: “Azərbaycan öz prioritetlərini və məqsədlərini aydın şəkildə müəyyən etmiş gənc, müstəqil, dinamik və müasir ölkədir. Biz Azərbaycan gəncləri kimi böyük potensial, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq”.

Bu il dahi şəxsiyyət və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il “Heydər Əliyev İli” elan edilmişdir. Ölkədə və onun sərhədlərindən kənarda Heydər Əliyevin siyasi irsinə, zəngin həyat yolu və fəaliyyətinə həsr edilən konfrans, simpozium, sərgi, müsabiqələrin, respublikanın görkəmli elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə tədbirlərin təşkili xalqımızın Ulu Öndərə minnətdarlıq duyğusunun təzahürü, əziz xatirəsinin əbədiləşdirilməsidir. Xalqımız Ümummilli Lider Heydər Əliyevi daim qürur və məhəbbət hissi ilə yad edəcəkdir. Gənc nəsil onun yaratdığı dövlətçilik irsini qoruyacaq və ideyalarına sadiq qalacaqdır. Azərbaycanlı olmağı ilə ömür boyu fəxr edən Heydər Əliyevin adı gənclərin qəlbində milli iftixar mənbəyi, müdriklik və mübarizlik simvolu kimi həmişə yaşayacaqdır.

**Zülfiyyə ŞİRİYEVA,**
**Xalq Təhsili Muzeyinin direktor müavini**

# "Qırmızı kitab"ın III nəşri




## Kitab AMEA-da keçirilən "Azərbaycanda bioloji müxtəlifliyin qorunması" mövzusunda keçirilən konfransda ictimaiyyətə təqdim edildi

Azərbaycanın "Qırmızı kitab"ı III dəfə nəşr olundu. Ən yüksək akademik nəşr sayılan kitab Azərbaycan və ingilis dillərində hazırlanıb, ancaq burada latınca da növlər var. Kitabda 700-dən çox flora və fauna növünün mühüm elmi əsasları, Naxçıvan ərazisində yayılmış nadir bitki növləri haqqında çox faydalı elmi məlumatlar, eləcə də mindən çox nadir şəkil öz əksini tapıb. Əvvəlki iki nəşrdən fərqli olaraq bu nəşrdə nadir və nəsli kəsilmək təhlükəsi altında olan növlərin sayı artıb. Belə ki, Azərbaycanın "Qırmızı kitabı"nın I nəşrində nadir, nəsli kəsilmək və təhlükə altında olmaqla, qorunmasına ehtiyac yaranan 108 növ heyvan və 140 növ bitki, II nəşrində 223 növ heyvan və 300 növ bitki əksini tapmışdısa, III nəşrdə 460 növ bitki, 241 növ heyvan, o cümlədən 47 növ göbələk adı daxil edilib.

"Qırmızı Kitab"ın 3-cü nəşrinin daha bir özəlliyi isə bu nəşrdə flora və fauna növlərinin çəhrayı siyahılarının tərtib edilməsindən ibarətdir. Bu siyahıya 49-u ali, 2-si ibtidai olmaqla 51 bitki növü salınıb.

**Nadir və həssas növlər tarixi areallarına - işğaldan azad edilmiş ərazilərə reintroduksiya olunur**

Nəsli kəsilmək təhlükəsi altında olan və qorunmasına ehtiyac yaranan fauna və flora növlərinin sayının artmasını ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev daha çox antropogen təsirlərin çoxalması, kəskin şəkildə özünü büruzə verən iqlim dəyişmələrinin mənfi təsirləri ilə izah edib. O, mayın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Azərbaycanda bioloji müxtəlifliyin qorunması" mövzusunda keçirilən konfransda çıxış edərək bildirib ki, əvvəlki nəşrlərin tərtibi zamanı bir çox növlər üzrə məlumatlar olmadığından həmin növlər siyahıdan kənarda qalıb. Nazir "Qırmızı Kitab"ın III nəşrinin respublikamızın biomüxtəlifliyinin qorunması, nəsli kəsilmək təhlükəsi altında olan fauna və flora növlərinin dəqiqləşdirilməsi və mühafizəsi tədbirlərinin gücləndirilməsi üzrə əsas istiqamətverici sənəd kimi mühüm rol oynayacağı qənaətindədir. Kitabın yeni nəşrinin Ümummilli Liderin 100 illik yubileyi ərəfəsində işıq üzü görməsi isə təsadüfi deyil: "Təbiətimizin böyük vurğunu, görkəmli dövlət xadimi Heydər Əliyevin məqsədyönlü siyasəti və davamlı fəaliyyəti sayəsində ölkədə nəsli kəsilmək təhlükəsi altında olan bir sıra bitki və heyvan növlərinin təbiətə qaytarılması, areallarının genişləndirilməsi mümkün olub".

Nazir təbii sərvətlərin qorunması, yaşıllaşdırma tədbirlərinin miqyasının artırılması sahəsində əhəmiyyətli addımları hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin atdığını deyib. Məhz Ulu Öndər müstəqillik dövründə flora və faunamızın, təbiət abidələrimizin, nadir heyvanlar aləminin qorunması, mühafizə edilməsi istiqamətində konkret dövlət siyasəti müəyyən edib: "Ölkəmizdə ekosistemlərin və təbii sərvətlərin qorunması istiqamətində həyata keçirilən, bünövrəsini Ulu Öndərin qoyduğu və son 20 ildə uğurla davam etdirilən dövlət siyasəti öz məntiqi bəhrəsini verir. Artıq xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 478 min hektardan 893 min hektara qədər artırılıb. Hazırda 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığından ibarət olan xüsusi mühafizə olunan təbiət ərazilərimiz ekosistemlərin, nadir fauna və flora növlərinin mühafizəsində əhəmiyyətli rol oynayır".

Nazir Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizin zəngin bioloji müxtəlifliyinin qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində UNESCO ilə əməkdaşlığa da diqqət çəkib.

O, İDEA İctimai Birliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu (WWF) ilə birlikdə nadir və həssas növlərin ölkənin müxtəlif ərazilərindəki tarixi areallarına, o cümlədən işğaldan azad edilmiş ərazilərə reintroduksiya olunduğunu deyib.

**Ulu Öndərin 100 illiyinə mühüm töhfə**

AMEA prezidenti akademik İsa Həbibbəylinin fikrincə, ölkə başçısının Sərəncamı əsasında Milli Elmlər Akademiyası və Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının ərsəyə gətirdiyi iki cilddən ibarət "Qırmızı kitab"ın III nəşri "Heydər Əliyev İli"nin əlamətdar hadisələrindən biri, hər iki qurumun Ulu Öndərin 100 illiyinə mühüm töhfəsidir.

Akademik qeyd edib ki, təbii sərvətlərin, ətraf mühitin qorunması, təbiətin mühafizəsinin təşkili, biomüxtəlifliyin daha da zənginləşdirilməsi ölkəmizdə, əsasən Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin ilk illərindən etibarən sistemli şəkildə həyata keçirilir. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi bu proses milli parklar, təbiət qoruqları və yasaqlıqların yaradılması ilə müşayiət olunub ki, bu da Heydər Əliyev - İlham Əliyev epoxasının Azərbaycan tarixinə gətirdiyi yenilikdir. AMEA rəhbəri ötən müddət ərzində ölkəmizdə təbiətin qorunması və mühafizəsi istiqamətində bir çox rəsmi sənədlərin, qərarların qəbul edildiyini xatırladaraq, bu prosesdə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən proqramlar və layihələrin rolunu, Heydər Əliyev Fondunun və İDEA İctimai Birliyinin fəaliyyətini xüsusi qeyd edib. O, Azərbaycanda biomüxtəlifliyin qorunmasının həm həyat tərzinə, həm də mükəmməl bir strateji əhəmiyyətə malik olan dövlət siyasətinə çevrildiyini söyləyib.

Akademik İsa Həbibbəyli "Qırmızı kitab"ın meydana çıxmasının ölkəmizdə həyata keçirilən dövlət siyasəti nəticəsində gerçəkləşmiş möhtəşəm bir layihə olduğunu deyib: "Hələ sovet hakimiyyəti illərində, Ulu Öndərin 1977-ci ildə imzaladığı qərarla Azərbaycanda "Qırmızı kitab"ların hazırlanmasına başlanılıb. 1989-cu ildə Azərbaycan Respublikasının "Qırmızı kitab"ının birinci cildi nəşr olunub. Sonrakı illərdə ölkəmizdə baş verən ictimai-siyasi proseslər, keçid dövrünün çətinlikləri bu sahədə işləri ləngitsə də, müəyyən nəticələr əldə olunub. 2013-cü ildə ikinci nəşr meydana çıxıb".

**Konfransda Azərbaycanın biomüxtəlifliyin qorunmasına sadiqliyi və qətiyyəti yüksək dəyərləndirildi**

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Azərbaycan təbiətinə 30 illik erməni işğalının təsirindən danışıb. Nadir endemik bitkilərin işğaldan azad edilmiş ərazilərimizdə nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qaldığını, bədnam qonşularımızın sözügedən ərazilərdə biomüxtəlifliyi məhv etdiyini deyib. Ölkəmizdə bioloji müxtəlifliyin qorunması, saxlanması istiqamətində dövlət siyasətinin uğurlarına diqqət çəkən Sadiq Qurbanov "Qırmızı kitab"ın III nəşrini yüksək qiymətləndirib.

BMT-nin Azərbaycandakı Rezident Əlaqələndirici Ofisinin rəhbəri Kanako Mabuçi deyib ki, Heydər Əliyevin hakimiyyəti dövründə 14 beynəlxalq ekoloji sənədə qoşulan Azərbaycanda bu gün qorunan ekoloji ərazilər genişlənir, milli parklar, bioturizmin inkişafı üçün şərait yaradılır. O, Azərbaycanın biomüxtəlifliyin qorunmasına sadiqliyini və qətiyyətini yüksək dəyərləndirib.

**Ruhiyyə DAŞSALAHLI**

# IV SABAH İncəsənət Festivalının açılış mərasimi keçirilib

Naxçıvanda IV SABAH İncəsənət Festivalının açılış mərasimi keçirilib.

Festivalın məqsədi "SABAH qrupları" layihəsinin incəsənətyönümlü baza ali təhsil müəssisələrində tələbələrin nailiyyətlərini əyani nümayiş etdirmək, gənclər arasında təhsil və yaradıcılığa həvəsi artırmaqdır.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin şöbə müdiri Sevinc Cabbarova, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, SABAH İcra Komitəsinin rəhbəri Eldar Qocayev, müvafiq ali təhsil müəssisələrinin prorektorları və digər qonaqlar iştirak ediblər.

Açılış mərasimində Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) SABAH qruplarının tələbələri də iştirak ediblər. Tədbirdə müxtəlif musiqi və rəqs nömrələri, tamaşalardan parçalar ifa edilib, həmçinin memarlıq layihələri, dizayn və dekorativ tətbiqi sənət nümunələri nümayiş olunub.

Bundan başqa, ADRA-nın SABAH qrupları tələbələri tərəfindən bədii keramika, xalçaçılıq, toxuculuq, metal və rəngkarlıq üzrə ustad dərsləri keçirilib.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Təhsil və Mədəniyyət nazirliklərinin xüsusi dəstəyi ilə həyata keçirilib.





# Nazir müavini Gəncədə tədris prosesi ilə tanış olub



Elm və təhsil nazirinin müavini Həsən Həsənli Gəncə şəhərinə səfər edib.

Səfər çərçivəsində nazir müavini Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra Həsən Həsənli bir neçə məktəbəqədər və ümumi təhsil müəssisəsini ziyarət edib, tədris prosesi ilə tanış olub.

Nazir müavini səfər zamanı Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin əməkdaşları, məktəbəqədər və ümumi təhsil müəssisələrinin direktorları ilə görüş keçirib.

## Əcnəbi tələbələrin miqrasiya məsələlərinə dair görüş

Mayın 23-də Dövlət Miqrasiya Xidmətinin təşəbbüsü ilə Elm və Təhsil, Xarici İşlər nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin əməkdaşları ilə ali təhsil müəssisələrinin səlahiyyətli nümayəndələri arasında görüş keçirilib. Görüşün təşkilində məqsəd Azərbaycanda təhsil alan əcnəbi tələbələrə dair miqrasiya məsələlərinin tənzimlənməsi istiqamətində işin təkmilləşdirilməsindən ibarət olub.

Tədbirdə Dövlət Miqrasiya Xidmətinin Miqrasiya Proseslərini Tənzimləmə Baş İdarəsinin rəisi İsmayıl Abdullayev əcnəbi tələbələr üçün maarifləndirmə tədbirlərinin təşkilinin əhəmiyyətini diqqətə çatdırıb.

Tədbir iştirakçılarını ölkəmizin miqrasiya qanunvericiliyinin tələbləri barədə məlumatlandıran İsmayıl Abdullayev əcnəbi tələbələrlə bağlı sənədləşmə işinin səmərəli təşkili, eləcə də ölkədə qalma və yaşama qaydaları ilə bağlı müvafiq prosedurların vaxtında həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin sektor müdiri Müjdat Həsənov əcnəbi tələbələrin cəlbinin prioritet istiqamətlərdən biri olduğunu deyib. O, adıçəkilən sahədə ali təhsil müəssisələri tərəfindən görülən işlər, eyni zamanda nazirliyin əcnəbilərin təhsilinin təşkilinə dair optimallaşdırma ilə bağlı həyata keçirdiyi layihələrin *portal.edu.az* sistemi üzərindən mərkəzləşmiş e-müraciət xidməti vasitəsilə reallaşdırılmasının əhəmiyyətini qeyd edib. Sözügedən sahədə irəliləyişlərə nail olunması və cari tədris ilində təhsil alan əcnəbilərin sayında qeyd edilən artımdan bəhs olunub.

Tədbirdə iştirak edən digər qonaqlar qeyd olunan məsələlərlə bağlı müvafiq qurumlar arasında qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıblar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Vətəndaş müraciətləri və vətəndaş məmnunluğu

Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə regional təhsil idarələri ilə birlikdə vətəndaş müraciətləri və vətəndaş məmnunluğu ilə əlaqədar maarifləndirici görüşlər keçirilir.

Məqsəd yerli təhsili idarəetmə orqanlarında kommunikasiya və informasiya mübadiləsinin effektiv həyata keçirilməsinə dəstək olmaq, sözügedən qurumların bu istiqamətdəki fəaliyyətində səmərəliliyin artırılması və dataəsaslı məlumat bazasının yaradılmasıdır.

Bu məqsədlə Gəncə-Daşkəsən, Qazax-Tovuz, Şirvan-Salyan, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara, Mərkəzi Aran regional təhsil idarələrinin əməkdaşları ilə görüşlər təşkil edilib. Görüşlərdə nazirlik əməkdaşları Altun Rəcəbli və Həmid Qasımov iştirak ediblər.

Görüş çərçivəsində vətəndaş müraciətlərinin dataəsaslı qeydiyyatı və analitik təhlili, müraciətlərin araşdırılması, vətəndaşların qəbula dəvəti, sosial şəbəkələrdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində tədbirlər planının hazırlanması, proseslərin avtomatlaşdırılması ilə çevik kommunikasiyanın təşkili və vətəndaş qəbulu prosesinin təkmilləşdirilməsi məsələləri müzakirə edilib.



# AzMİU-nun müəllim və tələbələrinə IELTS sertifikatları təqdim olunub





## Təhsilin İnkişafı Fondunun həyata keçirdiyi layihələr təhsilin inkişafına töhfə verir

Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu tərəfindən təşkil edilmiş IELTS imtahanlarında uğurlu nəticə göstərən Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) müəllim və tələbələrinə sertifikatlar təqdim olunub.

Təqdimetmə mərasimində AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova, elm və təhsil nazirinin müşaviri, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, fondun əməkdaşları, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Professor G.Məmmədova çıxış edərək bildirib ki, fond tərəfindən həyata keçirilən layihələr təhsilin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. IELTS kurslarının və imtahanlarının da bu qəbildən olduğunu qeyd edən rektor AzMİU-da ingilis dilində təhsilin təşviqi və təşkili ilə bağlı görülən işlərə diqqət çəkib: "Müəllim və tələbələrin ingilis dili səviyyəsinin yüksəldilməsi üçün universitet tərəfindən davamlı olaraq ödənişsiz hazırlıq kursları və imtahanlar təşkil olunur. Həmin prosesin nəticəsidir ki, artıq ixtisaslarımızın böyük əksəriyyəti üzrə ingilis dilində tədrisi təşkil etmək iqtidarındayıq, bunun üçün müəllim potensialımızı formalaşdırmışıq. Bundan əlavə, bizim Böyük Britaniyanın Lester Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində təşkil etdiyimiz imtahanların nəticələri Avropa universitetləri tərəfindən də tanınır. Əlbəttə ki, bu amil müəllim və tələbələrimiz üçün əlavə imkanlar yaradır".

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov çıxışında son IELTS imtahanlarında uğur qazanan AzMİU tələbələrinin say çoxluğuna diqqət çəkərək universitetin bu istiqamətdəki fəaliyyətini təqdir edib.

Daha sonra Elnur Nəsibov fondun fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verib.

Çıxışlardan sonra IELTS imtahanlarında uğur qazanan tələbələrə sertifikatlar təqdim olunub.

# Elmi-tədqiqat üzrə birgə fəaliyyət universitetlərimizə nə verəcək?

## Vaterloo Universitetinin professoru İlham Axundov

### "Elmi-tədqiqat institutlarının mövcud potensialından istifadə etməklə universitetlərdə birgə elmi araşdırmaların aparılması, gənc elmi kadrların daha yaxşı hazırlanmasına nail olmaq olar"

⇦ Əvvəli səh.1

Mən imzalanan memorandumun məzmunu ilə tanış deyiləm, amma bildiyim qədər bu memorandumun imzalanmasında məqsəd 5 elmi-tədqiqat institutu və BDU arasında birgə fəaliyyətin təşkilidir. Elmi-tədqiqat institutlarının mövcud potensialından istifadə etməklə universitetlərdə birgə elmi seminarların keçirilməsi, birgə elmi araşdırmaların aparılması, birgə elmi nəşrlərin və gənc elmi kadrların daha yaxşı hazırlanmasına nail olmaq olar.

**Oruc MUSTAFAYEV**

## UNEC-in 9 tələbəsi və məzunu Almaniyanın DAAD təqaüdünün qalibi olub

Almaniyanın "DAAD təqaüdləri 2023" proqramının qalibi olan azərbaycanlı tələbələrin və məzunların mükafatlandırılması mərasimi keçirilib.

Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Ralf Horlemanın iqamətgahında keçirilən tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru Nərmin İbrahimova və tələbələr iştirak ediblər.

Tədbir zamanı səfir Ralf Horleman bildirib ki, 26 azərbaycanlı tələbə və məzun DAAD təqaüdü ilə Almaniyanın müxtəlif universitetlərində magistr proqramı üzrə təhsil hüququ qazanıb. Qeyd edib ki, proqramın qalibləri daha çox UNEC-dən olan tələbə və məzunlardır. Belə ki, UNEC-in 2 tələbəsi və 7 məzunu DAAD-ın təqaüdünü qazanıb. Səfir tələbələri təbrik edərək onlara təhsillərində uğurlar arzulayıb.

## BDU tələbələri "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində

Bakı Dövlət Universitetinin (BDU) ekologiya və torpaqşünaslıq fakültəsinin müəllim və tələbə kollektivi XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi ("InterFood Azerbaijan") Sərgisini ziyarət ediblər.

Qeyd edək ki, Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Agro" sərgisi kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla, minlərlə peşəkar ziyarətçi auditoriyasını bir yerə toplayıb.

Sərgidə iştirakçılar arasında Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya və aqrar sahədə uğur qazanmış digər ölkələr də çıxış edirlər. İştirakçıların 71 %-i xarici şirkətlərin nümayəndələridir.

Sərgidə kənd təsərrüfatında tətbiq olunan innovativ texnologiyalar, kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma sistemləri, elektron kənd təsərrüfatı, pilotsuz uçuş aparatları, süni intellekt, alternativ enerji mənbələri və digər smart bölmələr nümayiş olunur. Həmçinin Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat institutlarının ən son nailiyyətləri, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və təşəbbüsü ilə keçirilmiş bir sıra startap müsabiqələrinin qaliblərinin məhsul və həlləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsulları sərgilənir.

Sərgiyə baxış zamanı ziyarətçi müəllim və tələbələrin sualları cavablandırılıb.

# AzTU ilə 16 şəhər və rayon icra hakimiyyəti arasında müqavilə imzalanıb





"Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması" layihəsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Texniki Universiteti (AzTU) ilə Lənkəran və Şirvan şəhər, Masallı və Biləsuvar rayon icra hakimiyyətləri arasında müqavilə imzalanıb.

Bu məqsədlə AzTU-nun rektoru Vilayət Vəliyevin başçılıq etdiyi nümayəndə heyəti - Logistika və Nəqliyyat İnstitutunun direktoru Fuad Daşdəmirov, Universitet-Sənaye Əməkdaşlığı və Ömürboyu Təhsil Mərkəzinin rəhbəri Aynurə İsmayılova Lənkəran və Şirvan şəhərləri, Masallı və Biləsuvar rayonlarında səfərdə olublar.

Rektor Vilayət Vəliyev, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov və Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun iştrakı ilə keçirilən geniş tərkibli görüşlərdə bildirilib ki, müqavilənin "Heydər Əliyev İli"ndə imzalanması və icra olunması mühüm hadisə olmaqla bərabər, onun irsinin öyrənilməsi və təbliğinə əhəmiyyətli töhfədir. Belə ki, Ulu Öndər şəhərlərimizin dayanıqlı inkişafına, xüsusilə də yol şəbəkələrinin planlı layihələndirilməsi və icrasına ciddi fikir verirdi.

Görüşlər zamanı layihənin gedişatına dair fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, dünyaya sürətlə inteqrasiya olunan respublikamızın şəhərlərində mobillik planının işlənib hazırlanması əhalinin həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə artmasına təkan verəcək.

Belə ki, hazırlanacaq hesabatlar şəhər nəqliyyat infrastrukturunun ümumi inkişafı, ictimai nəqliyyat şəbəkəsinin işinin yaxşılaşdırılması, piyada hərəkətinin təhlükəsizliyinin artırılması və asanlaşdırılması, velosiped yollarının istiqamətinin müəyyən edilməsi, yollarda digər təkmilləşdirmə üzrə tədbirlər "Şəhərdaxili hərəkət (mobillik) planları"nda öz əksini tapacaq.

"Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması" layihəsinin həyata keçirilməsi məqsədilə AzTU ilə ümumilikdə 16 şəhər və rayon (Yevlax, Şəki, Göyçay, Ağcabədi, Göygöl, Şəmkir, Naftalan, Mingəçevir, Tovuz, Quba, Qusar, Xaçmaz, Lənkəran, Biləsuvar, Masallı və Şirvan) icra hakimiyyətləri arasında müqavilə imzalanıb.

Qeyd edək ki, AzTU qeyd olunan bölgələrin cari il ərzində şəhərdaxili mobillik planlarını hazırlayacaq.

## UTECA-da məzun yarmarkası

Azərbaycan Texnologiya Universiteti (UTECA) və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə əmək yarmarkası keçirilib.

UTECA-nın rektoru dosent Yaşar Ömərov giriş nitqi ilə çıxış edərək universitetdə əmək bazarının tələblərinə uyğun kadr hazırlanması istiqamətində görülən işlərdən danışıb.

Sonra Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, millət vəkili Müşfiq Cəfərov, YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, Gəncə-Daşkəsən Regional Məşğulluq filialının müdiri Elməddin Qurbanov, Dövlət Məşğulluq Agentliyinin tabeliyində Gəncə Peşə Hazırlığı Mərkəzinin müdir müavini Toğrul Yusifli çıxış edərək işəgötürənlərə və işaxtaranlara uğurlar arzulayıblar.

Rəsmi hissədən sonra UTECA-da bu il məzun olacaq 660 tələbə və magistr, eləcə də ötən illərin məzunları işəgötürənlərin stendlərinə yaxınlaşaraq vakansiyalarla yaxından tanış olub, şəxsi məlumatlarını təqdim ediblər. İşaxtaranlara CV formalarını həm də onlayn təqdim etmək üçün internetə çıxış təmin edilib.

"Azəralüminium", "AzerGold", "Azərsun" Holdinq, Qəbələ Konserv zavodu, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, KOBİA, Şəmkir Aqroparkı kimi dövlət və özəl müəssisələri, Paşa Bank, Kapital Bank, Bank of Baku və s. banklar yarmarkada işəgötürənlər qismində təmsil olunub.

Ümumilikdə əmək yarmarkasında 40-dan çox müəssisə tərəfindən 400-dən artıq vakansiya təqdim edilib.

# Kimya elminin perspektiv istiqamətləri üzrə əməkdaşlıq genişləndirilir

## AKİ-də kimya və kimya mühəndisliyi üzrə ixtisaslaşmış fakültə və kafedra rəhbərləri ilə görüş keçirilib

Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunda (AKİ) dövlət universitetlərinin kimya və kimya mühəndisliyi üzrə ixtisaslaşmış fakültə və kafedra rəhbərləri ilə "Kimya elminin perspektiv istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Bakı Dövlət, Bakı Mühəndislik, Azərbaycan Dövlət Neft və Sənaye, Azərbaycan Tibb, Azərbaycan Dövlət Pedaqoji, Sumqayıt Dövlət, Azərbaycan Texniki unversitetlərinin nümayəndələri iştirak ediblər.

İnstitutun baş direktoru akademik Vaqif Fərzəliyev bildirib ki, belə bir görüşün keçirilməsində əsas məqsəd elmlə təhsilin inteqrasiyasının daha da gücləndirilməsi üçün kimya və kimya mühəndisliyinin prioritet istiqamətləri üzrə mövcud əlaqələrin daha da genişləndirilməsi, müştərək fundamental-tətbiqi elmi tədqiqatların aparılması, kadr hazırlığı, elmi-pedaqoji fəaliyyət, birgə elmi rəhbərlik, təcrübə mübadiləsi, birgə elmi seminarların təşkili və s. istiqamətlərdə əməkdaşlıq məsələlərini qarşılıqlı müzakirə etmək, yaxın gələcək üçün yol xəritəsinin müəyyənləşdirilməsindən ibarətdir.

Rəhbərlik etdiyi elmi müəssisənin fəaliyyət istiqamətləri, əldə etdiyi elmi nailiyyətləri, beynəlxalq əməkdaşlıq əlaqələri haqqında məlumat verən V.Fərzəliyev qeyd edib ki, indiyə qədər BDU, ATU, BMU ilə müştərək olaraq zərif üzvi sintezin və kompüter modelləşməsinin imkanlarından istifadə etməklə yüksək təsirə malik fizioloji fəal birləşmələrin, o cümlədən, dərman maddələrinin, müxtəlif təyinatlı üzvi reagentlərin və kompozision materialların məqsədli sintezi, funksional təsir mexanizminin öyrənilməsi istiqamətində aparılmış müfəssəl tədqiqatların nəticələri dünyanın nüfuzlu jurnallarında dərc olunub. O, hazırda AKİ-də BDU-nun baza kafedrasının fəaliyyət göstərdiyini, orada tələbə və magistrantların elmi-istehsalat təcrübəsi keçdiklərini, laboratoriyalarda tədqiqat işləri ilə məşğul olduqlarını vurğulayıb.

Akademikin sözlərinə görə, ayrı-ayrı universitetlərin kimya ixtisası üzrə tələbə və magistrləri fərdi və qrup halında AKİ-nin müasir cihaz və avadanlıqlarla təchiz edilmiş laboratoriyalarında təcrübə keçib, diplom və kurs işlərinin təcrübi hissələrini yerinə yetirib. AKİ ilə BDU-nun kimya fakültəsi arasında müştərək elmi əməkdaşlıq çərçivəsində 2023-2024-cü tədris ili üzrə keçiriləcək birgə elmi seminarların planı təsdiq edilib, bu ilin sentyabr ayından başlayaraq qarşılıqlı formada aparıcı alimlərin təqdimatında elmi seminarlar təşkil olunacaq.

Daha sonra BDU-nun üzvi kimya kafedrasının müdiri akademik Abel Məhərrəmov bu görüşün aktuallığından, ölkəmizdə mövcud elmi məktəblərin daha da inkişaf etdirilməsi yollarından, eləcə də kadr hazırlığı, birgə tədqiqat mərkəzləri yaratmaq, laboratoriyaların müasir cihaz və reaktivlə təchiz məsələsi, problemlər və onların həlli yolları ilə əlaqədar təkliflərini səsləndirib.

BDU-nun kimya fakültəsinin dekanı dosent Fuad Kərimli universitetin AKİ ilə əlaqələrindən, kimya elminin perspektiv istiqamətlərindən, qarşıda duran prioritet məsələlərdən danışıb.

Azərbaycan Tibb Universitetinin ümumi və toksikoloji kimya kafedrasının müdiri Eldar Qarayev universitetdə apardıqları elmi-tədqiqat işlərindən və bu işlərin aparılmasında kompüter texnologiyasından istifadə olunaraq dərman dizaynı, biokimya sahəsində qazanılan uğurlardan bəhs edib, bu istiqamətlərdə birgə əməkdaşlığın mümkünlüyünü diqqətə çatdırıb.

Digər tədbir iştirakçıları da qarşılıqlı əlaqələrin əhəmiyyətindən, gələcəkdə əməkdaşlığın genişləndirilməsi yollarından, kimya sahəsində olan problemlərdən danışıb və təkliflər irəli sürüblər.

## Türkiyə və Azərbaycan universitetləri birgə konfrans keçirib

Mingəçevir Dövlət Universiteti (MDU), Azərbaycan Texniki Universiteti (AzTU) və Türkiyənin Qazi Universitetinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində 17 May Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş "Azərbaycan-Türkiyə əməkdaşlığı: İKT, energetika, loqistika və ekoloji mühit" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransın açılışında çıxış edən Qazi Universitetinin rektoru Musa Yıldız, AzTU-nun rektoru Vilayət Vəliyev və MDU-nun rektoru Şahin Bayramov iki qardaş ölkənin tərəfdaş universitetləri arasında əməkdaşlığın davamlı inkişafından məmnunluqlarını bildiriblər. Diqqətə çatdırılıb ki, hər il mayın 17-də qeyd olunan Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü bu il "İnformasiya və kommunikasiya texnologiyaları vasitəsilə ən az inkişaf etmiş ölkələrin imkanlarının artırılması" mövzusuna həsr olunub. Bu günün beynəlxalq səviyyədə qeyd olunması cəmiyyətlərin informasiya-kommunikasiya texnologiyalarından istifadənin verdiyi imkanlara, eləcə də rəqəmsal fərqliliyin aradan qaldırılmasına diqqətini çəkmək məqsədi daşıdığı bildirilib. Bu kontekstdə "Heydər Əliyev İli" çərçivəsində keçirilən üçtərəfli elmi tədbirin önəmini vurğulayan rektorlar, habelə, regionda İKT, energetika, loqistika və ekologiya sahələrində mövcud əməkdaşlıq imkanlarının, perspektivlərinin dəyərləndirilməsi baxımından konfransın əhəmiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Sonra konfrans 3 bölmə iclası ilə işini davam etdirib.

# TƏHSİLİN humanitarlaşdırılması, yaxud humanitar təhsil...

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar. Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır.

**Heydər ƏLİYEV, Ümummilli Lider**

## Məsələyə ümumi nəzər

Hər hansı bir sahə üzrə fəaliyyətlər həmin sahənin səciyyəvi xüsusiyyətlərini, dövrə, zəmanəyə görə məqsəd və vəzifələrini, perspektiv inkişaf hədəflərini özündə əks etdirən prinsiplər üzərində qurulur. Bu prinsiplər, bir növ, tənzimləyici, istiqamətverici, optimallaşdırıcı xarakter daşımaqla nəzərdə tutulan strateji xəttin əsas qayəsinə, başlıca ideyasına və istinad nöqtəsinə çevrilir.

Məlumdur ki, Azərbaycanın təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri statusunda təhsilin humanistləşdirilməsi, humanitarlaşdırılması, demokratikləşdirilməsi, diferensiallaşdırılması, fərdiləşdirilməsi, inteqrativlik, səmərəlilik, varislik, millilik və dünyəvilik, fasiləsizlik, liberallaşma və s. prinsiplər müəyyən olunmuşdur. Lakin diqqətlə yanaşıldıqda burada qeyd edilən humanitarlaşmadan tutmuş liberallaşmaya qədər bütün bu prinsiplər, əslində, şaxələnmiş dəyərlər formatında humanistləşdirmə prinsipinin mahiyyətinin açıqlanmasına xidmət göstərən tərkib hissələri, alt-prinsiplər mövqeyində çıxış edir.

**Haşiyə.** 1996-cı ildən etibarən təhsilin humanistləşdirilməsi prinsipinin, “yeni pedaqoji təfəkkür” anlayışının mahiyyətinin izahı, təbliği, tətbiqi yolları ilə bağlı genişmiqyaslı maarifləndirmə tədbirləri, müsabiqə və layihələr Bakı şəhərində, o illərdə şəhər təhsil idarəsinin müdiri işləmiş görkəmli təhsil xadimi Asif Cahangirovun təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmiş, sonradan davamlı xarakter almışdır. Təsadüfi deyil ki, 1999-2000-ci dərs ili Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, respublikanın bütün tipdən olan ümumi və məktəbəqədər təhsil müəssisələrində “Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı ili” elan edilmiş, “İl” çərçivəsində reallaşdırılan əməli tədbirlər, qazanılmış nailiyyətlər növbəti illərdə yenilikçi ideyaların, xoşməramlı təşəbbüslərin, səmərəli iş təcrübələrinin təşəkkülündə, qabaqcıl təhsil müəssisələrinin və müəllimlərin üzə çıxarılmasında mühüm rol oynamışdır.

Təhsilin humanistləşdirilməsindən danışarkən bir amilə xüsusi diqqət yetirmək lazım gəlir. Belə ki, bu prinsipin daxilindəki alt-prinsiplərin hər biri, əsasən, təhsil sahəsindəki dövlət siyasətinin konkret istiqamətini təmsil etdiyi halda, humanitarlaşdırma təhsillə əlaqədar bütün fəaliyyətlərlə birbaşa bağlıdır. Ölkəmizin təhsil qanunvericiliyində “təhsil” anlayışı nəzəri cəhətdən “sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi” kimi təsbit edilsə də, təhsilin ümdə məqsədinin ağırlıq yükü təbii olaraq “vətəndaş və şəxsiyyət yetişdirmək” vəzifəsinin üzərinə düşür. Bu isə təhsildə insan tərbiyəsi amilinin başlıca meyar olduğunu təkzibedilməz həqiqət kimi diqqətə çatdırır ki, onun da təşkilati-mənəvi-pedaqoji-psixoloji əsasını humanitarlaşdırma prinsipi təşkil edir.

Belə bir analogiya aparmaq mümkündürsə, humanitarlaşdırma-siyasətdə dövlət mənafeyi, uzaqgörənlik, məqsədyönlülük, qətiyyət və iti düşüncə; iqtisadiyyatda millətin rifahı naminə dinamik inkişaf və ardıcıl modernləşdirmə; fəlsəfədə dünyanın və bəşəri dəyərlərin məntiqi dərkinə yönəlmiş baxış və yanaşmaların yaranması; səhiyyədə insan sağlamlığının prioritet sayılması; bədii ədəbiyyat və incəsənətdə mənəvi zənginlik və estetik mədəniyyətin təşəkkülü; ticarətdə düzgünlük və halallığın ifadəsidirsə, ümumi təhsildə bu keyfiyyətlər dialektik bağlantı yolu ilə insan şəxsiyyətinin formalaşmasını təmin edən yüksək əyarlı dəyərlərdir. Görkəmli psixoloq-alim, professor Əbdül Əlizadənin sözləri ilə desək, “Təhsilin humanitarlaşdırılması, əslində, müasir məktəbin insan konsepsiyası kimi qiymətləndirilməlidir” *(“Seçilmiş əsərləri”, I cild, Bakı-2022)*.

Nədənsə “humanitar” kəlməsi deyilərkən bu ifadənin davamı kimi insanın nəzərinə ilk növbədə “yardım” sözü gəlir. Humanitar yardım, heç şübhəsiz, mahiyyətcə dara düşmüş ölkələrə və insanlara göstərilən humanist mövqeyin bariz nümunəsidir. Lakin təhsil sistemində, təlim-tərbiyə quruculuğunda humanitarlaşdırma ilkin lüğəvi mənasını saxlasa da, məqsədinə görə nisbətən fərqli prizmadan izah edilir. Bu, sadəcə olaraq, təhsilalana qarşı yönələn mərhəmət hissi kimi başa düşülməməlidir. Təhsilin humanitarlaşdırılması, hər şeydən əvvəl, uşağın (təhsilalanın) nəticə etibarı ilə cəmiyyət üçün ləyaqətli insan-vətəndaş olaraq formalaşmasına, potensial imkanlarına uyğun bilik, bacarıq və səriştələrə yiyələnməsinə göstərilən məqsədyönlü və tələbkar münasibətdir. Bu mənada təhsildə humanitarlaşdırma vətəndaşlıq mövqeyi və vətənpərvərlik nümunəsidir.



**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

### Heç bir uşağı diqqətdən qaçırmayaq!

Belə bir fikir də yürütmək mümkündür ki, mahiyyətinə görə təhsilin humanistləşdirilməsi daha çox strategiyadırsa, təhsilin humanitarlaşdırılması daha çox formalaşmış dünyagörüşün ifadəsidir. Başqa sözlə, humanitarlaşdırılmanın reallığa çevrilməsi üçün onu təhsil sistemində tətbiq edənlərin dünyagörüşü humanitar tələbləri əks etdirməli, onlar humanitar pedaqoji təfəkkürə malik olmalıdırlar.

Əgər humanitarlaşdırmanı təhsil alan uşağın mənafeyinə yönəlmiş münasibət forması adlandırırıqsa, bu halda “təhsil” anlayışının iki komponentindən birinin-tərbiyənin bir proses kimi məhz ailədən başlanmasının sübuta ehtiyacı yoxdur. Bu məqamda məşhur yazıçı Çingiz Aytmatovun ibrətamiz bir fikri yada düşür: “İnsanın başqaları üçün görə biləcəyi ən xeyirxah iş öz ailəsində ləyaqətli övladlar tərbiyə etməkdir”. Əlbəttə, bu humanist müddəa tam reallığa çevrilsəydi, dünya cənnətə dönərdi. Lakin ailələr, ailələrdəki mənəvi-psixoloji mühit, tərbiyə məsələlərində valideynlərin mövqeyi müxtəlif olduğu üçün kifayət qədər diqqət və qayğı ilə əhatə edilməyən, sağlamlıqlarına, arzu və istəklərinə ciddi diqqət yetirilməyən, mənəvi inkişaflarına laqeyd münasibət bəslənilən uşaqlar, heç şübhəsiz, məktəb həyatına psixoloji gərginlik və zədələrlə qədəm basırlar. Ona görə də məktəbdə humanitar ruhlu mənəvi-psixoloji iqlimin yaradılması ilə bərabər, uşaqların təhsil həyatına uyğunlaşmasında etibarlı dəstəyə çevrilmiş məktəbəhazırlıq mərhələsində, eləcə də, xüsusilə, ibtidai təhsil səviyyəsində səriştəli, peşəkarlığı ilə seçilən, humanitar pedaqoji-psixoloji yanaşmaları mənimsəmiş müəllimlərin çalışması, uşaqların təhsilinin məhz onlara etibar edilməsi zəruri məsələ kimi meydana çıxır. Bu baxımdan pedaqoji ali və orta ixtisas təhsili müəssisələrində tələbələrə aşılanan ixtisas üzrə ən zəruri nəzəri biliklərlə yanaşı, müəllim hazırlığı sahəsində əsas diqqətin müəllim üçün xüsusilə vacib olan səriştə və keyfiyyətlərin formalaşmasına yönəldilməsi məqsədəmüvafiq hesab olunur:

* yaş fiziologiyası və psixologiyasına aid nəzəri biliklərin praktik bacarıq və səriştələrə çevrilməsi yolları;
* uşaqlara fərdi yanaşma və onlarla ünsiyyətqurma bacarıqlarının formalaşması;
* şagirdlərin fərdi keyfiyyətlərinin öyrənilib nəzərə alınması;
* uşaq şəxsiyyətinə hörmət və həssaslıqla yanaşılması;
* məktəbdaxili qiymətləndirmə növlərinin tətbiqi metodikası;
* təhsil prosesinin və uşaqların təhsil həyatının, öyrənmə meyillərinin motivləşdirilməsi, müəllim-şagird münasibətlərinin pedaqoji əməkdaşlığa çevrilməsi;
* şagirdlərdə idraki, ünsiyyət və psixomotor bacarıqların formalaşdırılması;
* şagirdlərdə yaradıcı fəaliyyət, müstəqil öyrənmə, tənqidi təfəkkür, tolerantlıq və məsuliyyət mədəniyyətinin aşılanması;
* ümumi təhsilin dövlət standartlarının mahiyyətinin açıqlanması;
* orta məktəbdə tətbiq edilən müvafiq fənn kurikulumlarında nəzərdə tutulanların mənimsədilməsi və sair.

Həqiqətən də, müəllim nəzəri cəhətdən nə qədər savadlı olsa belə, onda müəllimlik sənətini (müəllimlik, həqiqətən, sadəcə sənət deyil, incəsənətdir) şərtləndirən məlum keyfiyyətlər yoxdursa, uşaqların uğurlu təhsilindən danışmağa dəyməz. Normal nəzəri savadlılıq şagirdlərə qarşı məhəbbət və ülvi hisslərlə, pedaqoji peşəkarlıqla birləşəndə müəllim əsl vətəndaş mövqeli şəxsiyyətə, humanitarlaşdırılmış təhsilin yetkin nümayəndəsinə çevrilir.

Hansı fənni tədris etməsindən asılı olmayaraq, müəllimin səriştəliliyinin ən ümdə cəhətlərindən biri psixoloji-pedaqoji müşahidələrinə əsaslanaraq hər uşaqda müsbət keyfiyyətləri, rəğbətləndiriləsi və inkişaf etdiriləsi cəhətləri görüb qiymətləndirmək bacarığıdır. London universiteti kollecinin fəxri professoru Dilan Viliamın fikridir ki, “pedaqoji-psixoloji müşahidələri ən optimal qiymətləndirmə vasitəsi adlandırmaq mümkündür. Təkcə cari və imtahan qiymətləri şagird haqda tam təsəvvür yaratmaq imkanı vermir” *(“Azərbaycan müəllimi”qəzeti, 13 may 2022-ci il, №18)*. Bu fikir uşaqlara yanaşmada humanitar mövqeyin mövcudluğuna dəlalət edir. Əks halda, yəni uşağın daxili aləminə, arzu və istəklərinə, meyil-marağına, potensial imkanlarına laqeyd münasibət göstərildikdə o, həvəsdən düşür, təhsilə marağı azalır, hətta məktəbdən yayınmağa cəhd edir. Hər hansı bir fəndən (fənlərdən) qeyri-kafi qiymət aldığına görə uşağı təkrar sinifdə saxlamaq, fikrimizcə, məktəbin pedaqoji-psixoloji və təşkilati-idarəedici statusuna, həmin müəllimin (müəllimlərin) isə “peşəkar”, “öyrədən” imicinə ciddi xələl gətirir.

## Məqsədyönlü prosesdən real nəticələrə doğru

**Haşiyə.** Neçə illər bundan əvvəl Təhsil Nazirliyində internat tipli təhsil müəssisələri şöbəsinin müdiri işlədiyim vaxtlarda mənim yanıma məktəbli nəvəsi ilə birgə yaşlı bir qadın gəlmişdi. Məlum oldu ki, uşağın valideynləri yoxdur, nənənin himayəsində yaşayır. Bir neçə fəndən “2” qiymət aldığına və üzrsüz dərs buraxdığına görə onu məktəbdən xaric etmək istəyirlər. Soruşdum ki, bu uşaq hər hansı bir qabiliyyətə, bacarığa malikdirmi?! Nənəsi dedi ki, musiqiyə həvəslidir, yaxşı səsi var. Bundan sonra incəsənət təmayüllü gimnaziyanın direktorundan xahis etdim ki, uşağı yoxlayıb rəy bildirsinlər. Ertəsi gün məlumat verildi ki, uşaq çox istedadlıdır və o, təhsilini gimnaziyada davam etdirə bilər. Həmin uşaq gimnaziyanı bitirdikdən sonra hətta yüksək musiqi təhsili də aldı və həyatda öz yerini tutmağı bacardı. Bununla belə, əvvəl oxuduğu məktəbdə uşağa göstərilən etinasızlığı heç unuda bilmirəm.

...Eyni zamanda ürəkaçan bir fakt! Respublikanın Əməkdar müəllimi, qabaqcıl kimya müəllimi Heybət Qədirov uzun müddət Yardımlı rayonunun Alçabulaq kəndində işləyib. Zəhmətsevərliyi və uşaqların inkişafı yolunda fədakarlığı ilə seçilən Heybət müəllim kimya fənni üzrə şagirdləri yetişdirmək üçün hələ ibtidai siniflərdən istedadlıları müəyyənləşdirib onlarla məşğul olur və deyim ki, uğurları da az olmurdu. Yadımdadır ki, onun pedaqoji himayəyə götürdüyü istedadlı şagirdlərdən biri kimya fənni keçilməyən VI sinifdə oxuyarkən həmin fənn üzrə respublika olimpiadasının yekun turunda III, sonrakı ildə isə I yerə layiq görüldü. Nümunə mənasında qeyd etdiyim bu iki real fakt uşağa münasibətin biri digərinə əks formasıdır. Nə yaxşı ki, uşaq və gənclərimizin təhsil yolunu öz vətəndaşlıq mövqeyi, saf əqidə və fədakarlıq nuru ilə işıqlandıran müəllimlərimiz üstün saydadır.



### “Təhsilsiz uşaq itirimiş uşaq, itirilmiş uşaq itirilmiş gələcəkdir”

Bu dəyərli fikri ölkəmizin iqtisadiyyat naziri Mikayıl Cabbarov vaxtilə təhsil naziri işləyərkən UNESKO-nun Baş konfransının 38-ci sessiyasındakı çıxışında səsləndirmişdi.

Təhsilsizlik, həqiqətən, çox böyük ictimai bəladır və bu hal hər hansı bir şəxsi cəmiyyətdə “artıq adam”a çevrilmək təhlükəsi ilə qarşı-qarşıya qoyur. Nahaq yerə demirlər ki, “oxumayan bilməz, bilməyən bacarmaz”.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin insan həyatındakı rolu çox dəqiqliklə ifadə olunmuşdur: “Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir”.

Uşağın təhsil həyatının başlanğıcını onun inkişafında az əhəmiyyətli olmayan məktəbəqədər təhsil hesab etsək də, bütün uşaqlar bu imkandan tam və səmərəli yararlanmadıqları üçün yetərincə ağır və ağır olduğu qədər də şərəfli humanitar missiya ən kütləvi təhsil pilləsi öhdəliyini yerinə yetirən ümumi təhsilin üzərinə düşür. Ümumi təhsilin isə ən məsul mərhələsi 9 illik icbari ümumi orta təhsil dövrüdür. Çünki fərqli mühitlərdə böyüyən və müxtəlif təfəkkür tərzinə malik uşaqlarda 6 yaşdan başlayaraq tədricən sağlam dünyagörüşünün və şəxsiyyətyönümlü mənəvi keyfiyyətlərin formalaşdırılması, onların zəruri nəzəri biliklərə, həyati bacarıq və səriştələrə, ilkin texniki savadlılığa və müstəqillik, azadfikirlilik, rəqabətədavamlılıq elementlərinə yiyələnmələri, əqli, fiziki inkişafları, növbəti pillədə təhsillərini davam etdirmələri, faydalı əmək prosesinə hazır olmaları məhz ümumi orta təhsildən və onun nə dərəcədə səmərəli təşkili və həyata keçirilməsindən bilavasitə asılıdır.

Məlumdur ki, ümumi təhsildə tədris olunan fənlərin məzmunu humanitar əsaslı didaktik prinsiplərə (nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük,varislik, tamlıq və s.) uyğun müəyyənləşdirilir və nəzərdə tutulan məqsədlərə doğru sinifdən-sinfə, səviyyədən-səviyyəyə inkişaf etdirilir. Təhsilin humanitarlaşdırılması prosesində peşəkar müəllim amili və səriştəli idarəetmə ilə yanaşı, bütövlükdə dövlət təhsil standartlarının, eləcə də hər bir fənn üzrə məzmun standartlarının məqsədəmüvafiqliyi və əhəmiyyətliliyi uşağın mənafeyinə, onun cəmiyyət və dövlət tələbinə uyğun formalaşmasına hansı səviyyədə xidmət göstərməsi ilə qiymətləndirilir. Bu məntiqlə yanaşsaq, haqlı sual meydana çıxır: Necə edək ki, sistemli şəkildə aparılan elmi-pedaqoji, fizioloji, psixoloji və tibbi tədqiqatların nəticələri əsasında müəyyənləşdirilməklə orta təhsil sistemində tədrisi zəruri bilinən bütün fənlər bütövlükdə ümumiorta təhsilli şəxsin yetişməsinin təminatçısına çevrilsin!?

Təəssüf ki, fənləri əsas və qeyri-əsas adı ilə təsnif edənlərə hazırda da təsadüf olunur. Şübhəsiz, uşağın formalaşmasında hər bir fənnin öz mövqeyi və dəyəri vardır. Vaxtilə ibtidai siniflərdə musiqi, təsviri incəsənət, fiziki tərbiyə dərslərinə ayrılan saatlar hesabına şagirdlərə ana dili, riyaziyyat mövzularının tədris edilməsi kimi zərərli bir “ənənə” kök salmışdı ki, belə vəziyyət humanitar münasibətdən çox anti-humanist xarakter daşıyırdı *(bu, bəzi müəllimlərin təcrübəsində hələ də qalmaqdadır)*. Halbuki həmin fənlər uşaqların gözəlliyi dərk edib qiymətləndirməsində, bədii-estetik dünyagörüşlərinin formalaşmasında, məlumat dairələrinin genişlənməsində, daxili aləmlərinin, qəlb dünyalarının zənginləşməsində, fiziki inkişaflarında, onlarda xeyirxah və tolerant münasibətlərin təşəkkülündə əhəmiyyətli rol oynayır.

Əlbəttə, tədris planlarındakı bütün fənləri hər bir uşaq təfəkkür və meyil-maraq istiqamətinə görə eyni səviyyədə mənimsəmək imkanına malik deyildir. Riyaziyyat, təbiət fənlərinin *(fizika, kimya, biologiya)* çətin qavranılması məlum həqiqətdir. Lakin bəzilərinin düşündüyü kimi, təhsilin humanitarlaşdırılması heç də tədris planlarında humanitar fənlərin mövqeyinin artırılması anlamına gəlmir. Bəs, belə olan halda, riyaziyyat, fizika, kimya, biologiya və digər fənlərin humanitarlaşdırılması ideyasının mahiyyəti nədən ibarətdir?! Humanitarlaşdırma prizmasından belə əsaslandırmaq mümkündür ki, məsələn, heç bir uşağı sistemli riyazi təfəkkürə malik olmadığı, misal-məsələ həll edə bilmədiyi, kimyəvi reaksiyalardan baş çıxarmadığı, fiziki qanunlara maraq göstərmədiyi üçün istedadsız adlandırmaq qeyri-pedaqoji, anti-humanitar mövqedir *(Dünya ədəbiyyatının görkəmli nümayəndəsi A.S.Puşkinin liseydə oxuyarkən riyaziyyatdan çox aşağı qiymət alması məlum faktdır. Lakin bu hal onun məşhur şair kimi şöhrətlənməsinə heç də mane olmadı)*. Təhsil qanunvericiliyində təsbit olunmuş hər bir fənnin məqsəd və vəzifələri baxımından yanaşıldıqda, belə uşaqlara texniki-təbiət fənlərindən gündəlik həyati məsələlərlə əlaqəli ən zəruri, əlçatan nəzəri və praktik bilik və məlumatların verilməsi, eləcə də həmin fənlər vasitəsilə şəxsiyyəti təyin edən dəyərlərin, həyati bacarıq və səriştələrin, ilk növbədə, idraki fəallıq, qeyri-standart və alqoritmik düşüncə tərzinin aşılanması, münasibət bildirmək, səbəb-nəticə əlaqələrini dərk etmək, fiziki və kimyəvi qanunauyğunluqları tanımaq, təhlil və müqayisə, planlaşdırma, proqnozlaşdırma aparmaq, praktik məişət problemlərini həll etmək, texniki vasitələrlə davranmaq, təbiətə, ekologiyaya həssaslıq və qayğı ilə yanaşmaq və sair keyfiyyətlərin mənimsədilməsi diqqət mərkəzində saxlanmalıdır. Azərbaycan tarixi, Azərbaycan coğrafiyası fənlərinin tədrisinə, hər şeydən əvvəl, bütün uşaqlarda milli iftixar hissini gücləndirən, mənəviyyatlarında və əqidələrində dərin izlər buraxan vətəndaşlıq və vətənpərvərlik dərsləri kimi münasibət bəslənilməsi, dövlət dilinin-Azərbaycan dilinin səmərəli öyrədilməsi, gələcəkdə hansı peşəni, ixtisası seçəcəklərindən asılı olmayaraq, şagirdlərdə ədəbi dilə uyğun yazılı və şifahi nitq mədəniyyətinin formalaşdırılması məktəbin humanitar aspektdə fəaliyyətinin aparıcı istiqamətinə çevrilməlidir. Ulu Öndər Heydər Əliyevin bugünümüzə və gələcəyə ünvanlanmış konseptual fikridir ki, “Biz öz tariximizlə fəxr edirik. Orta məktəblərdə tarixin tədrisi çox yüksək qurulmalıdır. Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz tarixini, öz ana dilini mükəmməl bilməlidir. Öz dilini bilməyən, sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Ədəbiyyatımızı bilməyən dilimizi yaxşı bilməyəcəkdir, yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir. Uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq, onları dünya və Azərbaycan poeziyası və nəsri klassiklərinin ədəbiyyatın qızıl fonduna daxil olmuş əsərləri ilə tanış etmək lazımdır”.

Şübhəsiz, müəyyən fənləri proqram tələbinə uyğun tam mənimsəyə bilməməsi uşaq üçün mənəvi yükə çevrilməməli, onu təhsildən soyutmamalıdır. Dərk etmədiyi halda, təlim materiallarını əzbərləmək isə şagirdi ümumi inkişafdan saxlayan, təfəkkür və düşünmək qabiliyyətini ləngidən əsas amildir. Yeri gəlmişkən, dahi alim A.Eynşteyn orta təhsil aldığı məktəbi belə xatırlayırdı: “Bizim məktəbimiz uşaqlarda təəccübləndirmək qabiliyyətini inkişaf etdirmirdi. Əksinə, o, mexaniki əzbərləmə üsulları ilə bu qabiliyyəti zəiflədirdi” *(“Uşaqlar üçün ensiklopediya-Fizika”, Bakı,”Şərq-Qərb”, 2008, I hissə)*.

Rəmzi məna daşısa da, həqiqətən, məktəb uşağı hansı cəhətləri ilə təəccübləndirə bilər?! Birmənalı olaraq, fərq qoymadan hər uşağa qarşı eyni xoş rəftar və qayğıkeş münasibətlə, maraq və istəklərinə, daxili aləmlərinə həssaslıqla yanaşmaqla, əlverişli təhsil şəraiti və müstəqil öyrənmə imkanları yaratmaqla, hər hansı bir uğurunu qiymətləndirmək və onu daha da həvəsləndirməklə, rəy və mülahizələrinə tolerant mövqe sərgiləməklə! Bu amillər məktəbin humanitar mənəvi siması sayıla bilər.

Şagird nailiyyətlərinin məktəbdaxili müasir qiymətləndirmə sisteminə də *(diaqnostik, formativ, summativ)* təhsilin humanitarlaşdırılmasına yönəlmiş yolun vacib həlqəsi, əlverişli fürsət məqamı kimi baxmaq lazımdır. Əgər səmərəli və məqsədyönlü aparılarsa, bu qiymətləndirmə növləri bacarıq və qabiliyyətləri baxımından uşaqların təsnif olunmasında, potensial imkanlarının, meyil-maraqlarının üzə çıxarılmasında, fərdi psixoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsində, hər bir uşağa yanaşma taktı və metodikasının düzgün seçilməsində, onlarda təhsilə və biliklənməyə qarşı məsuliyyət hissi və motivləşmənin yaradılmasında müstəsna imkanlara malikdir. Həmin qiymətləndirmə növlərinin tətbiqindən alınan nəticələr isə məktəbin idarəolunması və təlim-tərbiyə prosesinin faktik keyfiyyətinin aşkara çıxarılmasında əsas indikatorlara çevrilir ki, onlar da mövcud vəziyyətə görə obyektiv şəkildə perspektiv planlaşdırmanın zəruri hədəflərə doğru istiqamətlənməsini təmin edir.

Ümumi təhsilin humanitarlaşdırılmasından söz açarkən dərsliklərlə əlaqədar məsələlərə toxunmamaq mümkün deyil. Məlumdur ki, ölkəmizdə orta məktəblər üçün milli dərsliklərin hazırlanması prosesi yalnız dövlət müstəqilliyimizin bərpasından sonra baş tutmuş, dərslik tərtibçiliyi sahəsində mütəxəssislər korpusu formalaşmağa başlamış, ötən müddətdə bir sıra nəzərəçarpan uğurlar da əldə edilmişdir.

Bununla belə, dərsliklərlə bağlı müşahidə olunan və nəzərə alınması zəruri bilinən bəzi cəhətlərə diqqət yetirmək lazım gəlir. Dərsliklərin məhz konkret fənn üzrə təsdiq olunmuş dövlət standartları rəhbər tutulmaqla tərtib edilməsi; dövlət tələbi olan standartların dərsliklərdə reallaşdırılmasının başlıca məqsədə çevrilməsi və artıq yüklənməyə yol verilməməsi; məlumatların uşaqların yaşına, yaddaşına, qavrama imkanlarına, psixologiyasına uyğun müəyyən edilməsi, dərsliklərin həcminin süni surətdə artırılmaması və digər bu kimi amillər tərtibçilər tərəfindən nəzarətdə saxlanası məsələlər sırasına daxildir.

Əgər hamılıqla qəbul ediriksə ki, fənlərin müəyyən olunmuş məzmununun şagirdlərə çatdırılması və mənimsədilməsində dərsliklər mühüm rol oynayır, bu zaman onların dil və üslub xüsusiyyətləri baxımından hansı peşəkar səviyyədə tərtib edilməsi ciddi məsələ kimi meydana çıxır. Yeri gəlmişkən, Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil Resursları Mərkəzində “Dərslik mətnlərinin dil və üslubu ilə bağlı Tövsiyələr” hazırlanıb müvafiq saytda yerləşdirilmişdir *(müəlliflər: texnika üzrə fəlsəfə doktoru İsmayıl Sadıqov, filologiya üzrə fəlsəfə doktoru Əsgər Quliyev)*. Burada haqlı olaraq qeyd edilir ki, “Dərsliklərin dil və üslubunun başlıca linqvistik, məntiqi, pedaqoji-psixoloji tələbləri içərisində məzmunun *(mətnin)* aydınlığı, ifadə edilən fikrin dəqiqliyi və izahların yığcamlığı əsas yer tutur”. Bu məntiqlə də vəsaitdə dərsliklərin dilinə və üslubi keyfiyyətinə xələl gətirən amillər pedaqoji-psixoloji cəhətdən əsaslandırılmış və xarakterizə olunmuşdur. Xüsusilə, mətnlərin “oxunabilirlik”, yəni, qavranılma səviyyəsinin yüksəldilməsi vacib vəzifə kimi irəli sürülmüşdür. Fikrimizcə, həmin “Tövsiyələr”in tərtibçilərinin və mətnlərin oxunabilirliyinin qiymətləndirilməsi metodlarına aid elmi tədqiqatların müəllifinin *(İsmayıl Sadıqov)* dərslik yaradıcılığı ilə məşğul olan mütəxəssislər qarşısında təqdimatlarının və müvafiq seminarların təşkili məqsədəuyğun olardı. Şagirdlərimizə yaş səviyyələrinə uyğun anlaşılan dil və üslubda hazırlanmış, bədii-estetik dizaynda tərtib edilmiş, mənaca dolğun, həcmcə yığcam dərsliklərin verilməsi, heç şübhəsiz, onların təhsilinə humanitar yanaşmanın növbəti bir təzahürüdür.

**P.S.** *Müasir dövrdə beynəlxalq ünsiyyət vasitəsinə çevrilmiş ingilis dilininn statusu cəmiyyətdə xeyli artmaqdadır. Ümumi təhsilin tədris planlarında həmin xarici dilin mövqeyinə ciddi önəm verilməsi qaçılmaz reallıqdır. Bu, ümumi təhsildə tətbiq edilməkdə olan mütərəqqi təhsil texnologiyası STEAM-la, ümumi təhsilli məzunların sosial müdafiəsini təmin edəcək peşə maraqlarının ödənilməsi üçün hər bölgədə peşə liseyi yaratmaq ideyası ilə bərabər, heç şübhəsiz, təhsilin humanitarlaşmasına yönəlmiş xoşməramlı missiyalardan birinə çevrilərdi.*

Azərbaycan Xalq Cümhuriyyəti - 105

"1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi... Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü..."

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində

Əvvəli səh.1

Milli Hökumət yarandığı ilk gündən başlayaraq xalqın maariflənməsi, təhsillənməsi, savadlanması yolunda, milli kadrların yetişdirilməsi, millətin mədəni və intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində görülməli işləri özünün ali məqsədlərindən biri elan etdi, maarif və mədəniyyətin inkişafını milli azadlığın, milli istiqlalın, müstəqil dövlətçiliyin təməl prinsiplərindən başlıcası kimi irəli sürdü, milli dövlət quruculuğunda, iqtisadi və mədəni quruculuqda maarifin, təhsilin müstəsna rolunu ön plana çəkdi.

Təhsilə, maarifə belə münasibətin nəticəsi idi ki, hələ Tiflisdə yaranan ilk müvəqqəti Milli Hökumət Kabinetinin tərkibindəki 9 nazirlikdən biri Xalq Maarifi Nazirliyi idi. Birinci Azərbaycan Hökuməti Kabinetində "Maliyyə və Xalq Maarifi Nazirliyi" kimi fəaliyyətə başlayan bu nazirlik sonrakı 4 Hökumət Kabinetində "Xalq Maarifi və Dini Etiqad Nazirliyi" kimi adlandırılmışdır. AXC-nin I, II və III Hökumət kabinetlərində Nəsib bəy Yusifbəyli, IV Hökumət Kabinetində Rəşid xan Kaplanov, V Hökumət Kabinetində isə Həmid bəy Şahtaxtinski xalq maarifi nazirləri olmuş, sonuncunun istefasından sonra qısa müddətdə Nurməhəmməd bəy Şahsuvarov xalq maarifi naziri vəzifəsini müvəqqəti icra etmişdir.

AXC Hökuməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra Fətəli Xan Xoyskinin rəhbərliyi ilə yaranan ikinci müvəqqəti hökumət kabinetinin Azərbaycan vətəndaşlarına 17 iyun 1918-ci il tarixli müraciətində yeni hökumətin qarşıdakı dövrdə həyata keçirəcəyi tədbirlər içərisində digər sahələrlə yanaşı, təhsil, maarif, məktəb sahəsində aparılacaq islahatların, ilk növbədə təhsil müəssisələrinin milliləşdirilməsi, ölkədə təhsilin, maarifin tezliklə ana dilində aparılmasına keçiləcəyi, eyni zamanda bu proseslərin tədrici yolla, mərhələlərlə reallaşdırılacağı xüsusi olaraq vurğulanırdı. Əslində bu tarixi müraciət müstəqil Azərbaycan dövlətinin təhsil sahəsində ilkin platforması, təxirəsalınmaz tədbirlər proqramı idi.

Çox keçmir ki, iyunun 30-da AXC Nazirlər Şurasının qərarı ilə Xalq Maarifi və Dini Etiqad Nazirliyinin strukturu və ştat cədvəli təsdiq edilir. Həmin struktura nazir, onun yoldaşı (müavini), nazirliyin idarə, şöbə rəisləri və dəftərxana aparatının işçiləri daxil idi. Hökumətin həmin qərarı ilə Xalq Maarifi Nazirliyinin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili (ümumtəhsil) və peşə təhsili sahələri üzrə üç müstəqil şöbə də yaradılmışdı.

Milli Hökumətin təhsil, maarif, elm və mədəniyyətin inkişafı sahəsində ayrıca Dövlət Proqramı olmasa da, Parlament tərəfindən maarif, təhsil üzrə xüsusi çərçivə qanun qəbul edilməsə də, Hökumətin III, IV, və V kabinetlərində Hökumət başçılarının Parlamentə təqdim etdikləri platforma (deklarasiya) və Hökumət proqramlarında təhsil, maarif, mədəniyyət sahəsində aparılacaq islahatlara da ayrıca yer verilmişdi. Əslində Parlamentə təqdim olunmuş həmin Hökumət Proqramlarında (deklarasiyalarında) təhsil sahəsində dövlətin yürüdəcəyi siyasətin əsas müddəalarını, prinsiplərini və istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Azərbaycanda fəaliyyət göstərən maarif müəssisələrinin, təhsil ocaqlarının qısa müddətdə, istinasız olaraq milliləşdirilməsi;
- ölkədə tədrisin, əsasən, dövlət dilində – Azərbaycan türkcəsində aparılmasına nail olunması; təlimi müvəqqəti olaraq başqa dillərdə olan məktəblərdə dövlət dilinin məcburi və intensiv şəkildə tədrisinin təmin edilməsi;
- tezliklə hamılıqla ümumi icbari ibtidai təhsilə keçirilməsi;
- milli maarif və təhsilin ahəngdar inkişafının milli azadlığın, milli istiqlalın gələcəyinin təməl prinsipi olması ideyasının təhsil quruculuğu prosesində dönmədən həyata keçirilməsi: "İstiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu bilir..." (N.Yusifbəyli: IV Hökumət Kabinetinin Proqramından);
- təhsil sahəsində islahatlar aparmaq üçün xüsusi Hökumət Komissiyasının, o cümlədən, təhsilin məzmunu, proqram və dərsliklərin hazırlanması üzrə fənn komissiyalarının təsis edilməsi;
- milli məktəbin tərəqqisini təmin etmək məqsədilə milli müəllim kadrların yetişdirilməsi üçün yeni darülmüəllimlərin (kişi müəllim seminariyası) və darülmüəllimatların (qadın müəllimlər seminariyası) yaradılması; bununla yanaşı, ilkin olaraq müəllim hazırlayan qısamüddətli pedaqoji kursların açılması; ilkin zəruri ehtiyacı ödəmək üçün Türkiyədən müəllimlərin dəvət olunması və dərsliklərin gətirilməsi;
- təhsilin məzmunu sahəsində islahatların aparılması, yeni proqram və dərsliklərin hazırlanması və nəşri, təhsilin məzmununda milli-mənəvi dəyərlərə-türkçülük, azərbaycançılıq, islamçılıq və avropaçılıq dəyərlərinə üstünlük verilməsi;
- ölkənin idarə olunması və iqtisadi müstəqilliyin təmin olunması üçün milli mütəxəssislərin hazırlanması; bu məqsədlə: ölkədə ali və orta ixtisas təhsili məktəbləri şəbəkəsinin qurulması və xarici ölkələrin tanınmış ali məktəblərində azərbaycanlı gənclərin təhsil almalarına şərait yaradılması;
- ölkənin tarixini, mədəniyyətini, etnoqrafiyasını, ədəbiyyatını öyrənmək üçün elmi müəssisələrin, elmi cəmiyyətlərin, universitetlərin təsis olunması;
- sənət, texniki-peşə məktəbləri, ümumi təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi; internat tipli məktəblərin, məktəbəqədər tərbiyə müəssisələrinin dövlət himayəsinə keçirilməsi;
- ölkənin hərbi potensialını formalaşdırmaq, müdafiə qüdrətini möhkəmləndirmək məqsədilə milli hərbi mütəxəssislər hazırlayan hərbi təhsil ocaqlarının geniş şəbəkəsinin yaradılması;
- ölkə büdcəsindən təhsilə ayrılan xərclərin mərhələlərlə intensiv olaraq artırılması;
- ana dilində təhsilin, maarifin inkişafı, əhali arasında savadsızlığın aradan qaldırılması və Azərbaycanın Avropaya mədəni inteqrasiyası məqsədilə əlifba islahatının aparılması, latın əlifbasına keçidlə bağlı Hökumət Komissiyasının yaradılması, ilkin layihənin Parlamentdə müzakirəsi və digər müvafiq təşkilati məsələlərin həlli və s.

Göründüyü kimi, Milli Hökumətin maarif, təhsil sahəsində apardığı siyasətin və ya həyata keçirəcəyi islahatların əsasında ölkənin intellektual potensialının qüvvətləndirilməsi, əhali arasında savadsızlığın ləğv edilməsi, təhsil müəssisələrinin, bütövlükdə təhsil sisteminin milliləşdirilməsi - tədrisin ana dilində - dövlət dilində aparılması yolu ilə xalqın milli dirçəlişinin təmin edilməsi kimi pak amallar, ümummilli məqsədlər dururdu ki, bütün bunlar mahiyyətcə ölkənin dövlət müstəqilliyinin möhkəmlənməsinə, nəhayət, Azərbaycanının müstəqil bir dövlət kimi dünyada tanınmasına birbaşa xidmət edirdi...

Təhsil, maarif, mədəniyyət sahəsində məhz bu müqəddəs amalları həyata keçirən AXC Hökuməti tezliklə milli tariximizə Bakı Dövlət Universiteti kimi ilk çağdaş ali təhsil və elm ocağı təsis edən, ilk milli hərbi məktəblər şəbəkəsi yaradan, ümumi icbari ibtidai təhsilə keçid prosesinə başlayan, çoxsaylı müəllim seminariyaları (o cümlədən Qazax müəllimlər seminariyasını) və pedaqoji kurslar açan, Azərbaycan türkcəsini ilk dəfə dövlət dili elan edən və dövlət dilini təhsil müəssisələrinin əsas tədris dilinə çevirən, dövlət himayəsində ilk məktəbəqədər tərbiyə müəssisələrinin əsasını qoyan, dövlət səviyyəsində 100 nəfərdən ibarət azərbaycanlı gəncin xaricdə təhsilinin təməlini qoyan, əlifba islahatı ilə Avropa mədəniyyətinə yaxınlaşmaq yolunda ilk addım atan demokratik, hüquqi, dünyəvi, sivil dövlət kimi daxil oldu...

Görünür, maarifə, təhsilə, mədəniyyətə xüsusi əhəmiyyət verməyin nəticəsidir ki, AXC Hökumətinin tarixini araşdıran bir çox Qərb alimləri haqlı olaraq o dövrün Milli Hökumətini "maarifçi hökumət", "ziyalıların hökuməti" kimi dəyərləndirirlər.

Mətləb aydınlığı üçün bununla bağlı bir sıra tarixi məqamlara toxunmaq yerinə düşərdi. Azərbaycanın çağdaş tarixi üzrə Qərbdə tanınmış Amerika tarixçisi professor Tadeuş Svyatoçovski özünün 1985-ci ildə Kembric Universiteti tərəfindən nəşr edilmiş "Rusiya Azərbaycanı: 1905-1920" adlı əsərində "Cümhuriyyət"in təhsil, maarif, mədəniyyət sahəsində gördüyü işlərdən danışarkən yazırdı: "İndi ölkəni artıq ziyalılar idarə etdiyi üçün ana dilində təhsil almaq kimi köhnə arzu artıq reallaşmağa başlamışdı. Yeni rejim bütün səylərini xüsusi olaraq bu sahəyə yönəltmişdi və bu da ruslaşdırma siyasətinin təzahürlərini aradan qaldırmağa kömək etməli idi. Təhsil səviyyəsindən və istiqamətindən asılı olmayaraq, bütün məktəblərdə Azərbaycan dilinin öyrənilməsi məcburi idi. Rusiya tarixi əvəzinə, türk xalqlarının tarixi tədris olunmağa başlanmışdı. Bir çox ibtidai məktəblərdə bütün dərslər Azərbaycan dilində keçirilirdi, lakin müəllim kadrlarının azlığı orta təhsil sisteminin türkcələşdirilməsini (burada söhbət Azərbaycan türkcəsindən gedir - Ə.Q.) ləngidirdi".

Müəllifin "ölkəni artıq ziyalılar idarə edirdi" fikrinin həqiqət olduğunu ondan görmək mümkündür ki, "Cümhuriyyət" Hökumətində təkcə xalq maarifi nazirləri olmuş Nəsib bəy Yusifbəyli (sonralar IV. V Hökumət Kabinetlərində baş nazir olub) Novorossiysk Universitetinin hüquq fakültəsini, Rəşid xan Kaplanov Sorbonna Universitetinin hüquq fakültəsini, Həmid bəy Şahtaxtinski Novorossiysk Universitetinin hüquq fakültəsini, Nurməhəmməd Şahsuvarov isə Qori Müəllimlər Seminariyasını, Tiflis Müəllimlər İnstitutunu və Kiyev Universitetinin hüquq fakültəsini bitirmiş, Avropa mədəniyyətini, Şərq sivilizasiyasını dərindən mənimsəmiş, vətənpərvər, həqiqi Azərbaycan ziyalıları idilər. Digər tərəfdən, XIX əsrin son rübündən Azərbaycanda başlanan maarifçilik, ana dilində təhsil uğrunda mübarizə hərəkatının, XX əsrin əvvəllərində həmin müstəvidən milli azadlıq hərəkatına keçid etmiş və "Azərbaycan" milli ideyasını, "Azərbaycançılıq" məfkurəsini özündə ehtiva edən, sonralar üçrəngli milli bayrağımızda əbədi simvollaşan "Türkləşmək - islamlaşmaq- avropalaşmaq" milli istiqlal triadasının mahiyyətini dərindən bilən və mənimsəyən, sonralar Milli Hökumətin qurucuları və rəhbərləri olan həmin ziyalıların hökumətin siyasətində təhsilə, maarifə, elmə, mədəniyyətə prioritet kimi yanaşmaları heç də təsadüfi deyildi. Onlar əslində XIX əsrin ikinci yarısından başlanan və yarım əsrdən artıq müddətdə böyük Azərbaycan maarifçilərinin - Mirzə Fətəli Axundzadənin, Həsən bəy Zərdabinin əsasını qoyduğu, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə. Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Həbib bəy Mahmudbəyov, Soltan Məcid Qənizadə, Fərhad Ağazadə və başqalarının davam və inkişaf etdirdikləri, böyük Azərbaycan maarifçi-xeyriyyəçiləri H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov, M.Nağıyev, İ.Hacinski va başqalarının himayə etdikləri milli maarifçilik ideyalarını həyata keçirmək üçün tarixi şans əldə etmişdilər...

Etiraf etməliyik ki, Azərbaycanın maarifçi-xeyriyyəçi mesenatlarının xalq maarifi, milli ziyalıların yetişdirilməsi, milli mətbuat və mədəniyyətin inkişafı sahəsində xidmətləri Xalq Cümhuriyyəti dövründə öz tarixi işini gördü, milli və ümumbəşəri (Avropa) dəyərlərə söykənən çağdaş təhsil sisteminin qurulmasında təməl, əsas, baza rolunu oynadı.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyindəki çıxışında Ulu Öndər Heydər Əliyev onun yaranmasını doğuran tarixi, siyasi və mədəni amillərə toxunaraq deyirdi: "Azərbaycanda Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu və XX əsrin əvvəllindəki dövrdə Azərbaycanın ictimai-siyasi, ədəbi, fəlsəfi mühiti ilə bağlıdır. Demək olar ki, o zaman Azərbaycanda və onun ətrafında gedən proseslər həmin o mühitin məntiqi nəticəsi olmuşdur... Amma, eyni zamanda belə bir cümhuriyyəti yaratmaq üçün Azərbaycanın qabaqcıl insanları lazım idi. Bu gün biz məmnuniyyət hissi ilə qeyd edə bilərik ki, o zaman onlar artıq var idi, yetişmişdi. Azərbaycanda o dövrdə böyük bir ziyalı dəstəsi meydana gəlmişdi. Onların əksəriyyəti Moskvada, Peterburqda, Avropanın bir çox şəhərlərində yüksək təhsil almış, Avropa mədəniyyəti, dünya mədəniyyəti ilə yaxından tanış olan və bunları mənimsəmiş insanlar idilər. Onlar öz intellektual potensialı, öz xalqına, millətinə olan qayğısı, sədaqəti ilə Azərbaycanda XX əsrin əvvəllində gedən proseslərdə iştirak etmiş va birləşib Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdılar..."

Deyilənlər sübut edir ki, Xalq Cümhuriyyətini yaradanların, onu idarə edənlərin əsil ziyalı olmaları xalqın maariflənməsi yoluna da həqiqi mənada işıq tutmuş, maarifə, təhsilə üstünlük vermələrini təmin etmişdir. Bu tarixi şansdan millətin, xalqın, dövlətin mənafeyi üçün gen-bol istifadə edən Milli Hökumət sonrakı nəsillər üçün elə bir təməl, elə bir əsas qoydu ki, bütövlükdə XX əsr Azarbaycan təhsili, maarifi, elmi, mədəniyyəti bu zəmin, bu fundament üzərində formalaşıb inkişaf etdi. Bu tarixi həqiqətdir! Bu reallıqla sadəcə iftixar etmək olar!..

AXC Hökumətinin qısa müddətdə maarif, təhsil, mədəniyyət sahəsində həyata keçirdiyi tarixi işlər haqda "Cümhuriyyət"in qurucularından olan M.Ə.Rəsulzadə Lahıcda gizli şəkildə qələmə aldığı "Əsrimizin Səyavuşu" (1920, iyul) əsərində təhsil sahəsində başlanmış irimiqyaslı maarifçilik hərəkatından danışarkən yazırdı: "Təhsil-tərbiyə təşkilatına ayrı bir təzəlik verilmişdi. Məmləkəti irfanın (maarifin, elmin) nuruyla işıqlandırmaq üçün ciddiyyətlə işə başlanmışdı. Ümumi öğrənimin (ümumi təhsilin) həyata keçirilməsi əsas tutularaq, bunu təmin etmək üçün bir tərəfdən məktəblər açılır, digər tərəfdən yeni qurulmuş erkək (kişi) va qızlar darülmüəlliminləri vasitəsi ilə öyrətmənlər (müəllimlər) hazırlanırdı. İbtidai məktəblərin çoxalmasına xidmət etmək üçün xüsusi şəkildə İstanbuldan öyrətmənlər gətirilmişdi. Bundan başqa, xüsusi olaraq hər bir qəza mərkəzində öyrətmənlər kursu açılmışdı. Maarif işində qadınların tərbiyəsi (təhsili) də kişilərlə bərabər tutulurdu. Mövcud rus gimnaziya və liseylərindən biri tamamilə milliləşdirilmiş, bir çox qız ibtidai məktəbləri açılmış, hamısı da qızlarla dolmuşdu.

Azərbaycan gəncliyini elm va texnika əsrinə hazırlamaq üçün Bakı Universiteti açılmışdı. Bundan başqa, yüzə yaxın tələbə müxtəlif texniki sahələrdə təhsil almaq üçün dövlət məsrəfi ilə Avropanın universitetlərinə və digər yüksək məktəblərinə göndərilmiş, bir o qədər də tələbənin İstanbula yollanması qərara alınmışdı..."

AXC Hökumətinin təhsilin, maarifin və mədəniyyətin inkişafına xüsusi önəm verməsinin əsas göstəricilərindən biri bu sayıla bilər ki, həmin dövrdə dövlət büdcəsindən təhsilə ayrılan vəsait başqa sahələrlə müqayisədə üstünlük təşkil edirdi. Müqayisə üçün deyək ki, Milli Hökumətin 1919-cu il dövlət büdcəsində (cəmi: 665 milyon manat) təhsilə ayrılan vəsait (75 milyon manat) az qala milli orduya ayrılan vəsaitə (80 milyon manat) bərabər olmuşdu...

Bütövlükdə milli təhsil tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, maarif və mədəniyyət sahəsində apardığı islahatlar, yürütdüyü milli siyasət, həyata keçirdiyi və nəzərdə tutduğu ideyalar, təhsilin milliləşdirilməsi yolunda atdığı tarixi addımlar sonrakı təhsil tariximizdə təməl prinsiplər kimi, əsasən, qorunub saxlanılmış, Milli Hökumətin nəzərdə tutduğu, lakin tarixin gedişi səbəbindən həyata keçirilməsi mümkün olmayan milli təhsil quruculuğu sahəsində müqəddəs amalları müstəqil Azərbaycanda gerçəkliyə çevrilmişdir.

**Əsgər QULİYEV,**
*ARTİ yanında Tədris Resursları Mərkəzinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

# Müzəffər Ali Baş Komandanın gələcək nəsillərə dövlətçilik əmanəti

## Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi Azərbaycan Bayrağı bu gün işğaldan azad olunmuş Şuşada dalğalanır

Əvvəli səh.1

Həqiqətən də xalqın hər bir fərdinə yaşadılan şərəfli, qürurlu o gün Azərbaycan üçün böyük tarixi əhəmiyyət daşıyan fövqəladə bir hadisə oldu. Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası "İstiqlal Bəyannaməsi"ni imzaladı, Azərbaycanın müstəqilliyi dünyaya bəyan edildi. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti formalaşdı; dövlət atributları təsis olundu; sərhədləri müəyyənləşdirildi; dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi; Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı.

Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Milli universitet yaradıldı. Azərbaycan vətəndaşlığı təsbit olundu. Milli ordu quruldu və bu ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etdi. Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Təəssüf ki, çətinliklə qazanılan bu azadlıq cəmi 23 ay sürdü. Azərbaycan yenidən Rusiya imperiyasının təsiri altına düşdü, beləliklə, 70 il bu imperiyanın boyunduruğu altında yaşamağa məcbur qaldı. Amma tarix xalqımıza öz müstəqilliyini bir daha qazanmaq fürsəti də tanıdı. Bu tarix isə 1991-ci ilin oktyabrı oldu. XX əsrin sonundakı mübariz nəsil sələflərinin ideallarını başa çatdıraraq azadlıq təməlinin üzərinə yenidən müstəqillik daşları düzdü...

Fəqət yenə də azadlığın yolunda maneələr, sərt tikanlar peyda oldu, təkrar istila yelləri əsməyə başladı. Azərbaycan arzuolunmaz bir xaosa sürüklənirdi; Ciddi hakimiyyət böhranı ilə idarəolunmaz bir vəziyyətə salınmışdı. Belə şəraitdə ölkəni asan parçalamaq, Azərbaycan xalqına təkrar acılar yaşatmaq niyyəti güdülürdü. Amma mümkün olmadı. Çünki 1993-cü ildə müstəqilliyin itirilməsi təhlükəsinə qarşı duracaq tək bir fenomen var idi - Heydər Əliyev! Böyük siyasi xadim Heydər Əliyevin hakimiyyətə dəvət olunması ilə Azərbaycanın müstəqilliyi bu dəfə daha möhkəm və daha etibarlı zəmin üzərinə qoyuldu.

1993-cü ildə müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətləndi. Azərbaycan dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi, özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etdi. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması kimi titanik layihələri səmərəli şəkildə həyata keçirdi.

Ermənistan-Azərbaycan arasında müvəqqəti atəşkəs rejimi nəticəsində ölkədə daxili sabitliyə nail olundu; dövlətçiliyimiz möhkəmləndirildi; hərbi sənayemiz quruldu; siyasi, iqtisadi, hüquqi və s. sahələrdə əsaslı islahatlar aparıldı.

"Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi"- sözləri ilə Heydər Əliyev sübut etdi ki, o, bunu doğru qərarları, siyasi gücü, dərin zəkası, güclü idarəçi keyfiyyətləri sayəsində çox gözəl bacardı.

O gündən bu günə ölkəmizin müstəqilliyi ciddi şəkildə qorunur, Azərbaycan heç bir ölkənin təsir dairəsində olmadan siyasət yürüdərək, öz inkişafı istiqamətində uğurlu addımlar atır və üçrəngli bayrağı bir daha enməyə qoymur! Əksinə, milli kimliyimizi, dini etiqadımızı, Avropa dəyərlərinə sadiqliyimizi öz rənglərində parlaq ifadə edən bu müqəddəs bayraq işğaldan azad olunan ərazilərimizdə də artıq qürurla dalğalandırılır. Çünki bu bayraq Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır, onun işğaldan azad olunmuş Şuşada dalğalanması Azərbaycan Prezidenti İlham Əliyevin gələcək nəsillərə dövlətçilik əmanətidir.

Dövlət başçısı İlham Əliyev Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olan çağdaş Azərbaycanı dünyanın güclü ölkəsinə çevirdi. Onu mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanıtdı. Sələflərinin görmək istədiyi bir Azərbaycan yaratdı və dövlətçilik ənənələrinə hər zaman sadiqlik nümayiş etdirdi. 2007-ci ildə Bakı şəhərinin İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış İstiqlal Bəyannaməsi abidəsinin rəsmi açılışını etdi. Xalq Cümhuriyyətinin 90, həmçinin 100 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzaladı. 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" təsis olundu.

2021-ci il 15 oktyabr tarixində "Müstəqillik günü haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu, bununla da 28 May- Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu bir daha göstərdi.

Müasir müstəqil, güclü Azərbaycan Xalq Cümhuriyyətini yaradan böyük insanların gerçəkləşən xəyallarıdır. Bu gerçəklik heç zaman dəyişməyəcək. Azərbaycanın müstəqilliyi əbədi, dönməz, sarsılmaz qalacaq!!!

**Vəfa ALLAHVERDİYEVA**

# Məhtumqulu Fəraqi iki ölkənin alimlərini birləşdirdi

## 300 illik yubileyi qeyd edilən şairin həyat və yaradıcılığı Beynəlxalq elmi-praktik konfransın mövzusu oldu

Türk dünyası XVIII əsr türkmən realist ədəbiyyatının banisi, böyük mütəfəkkir şair Məhtumqulu Fəraqinin bu il 300 illik yubileyini qeyd edir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) bu münasibətlə 2024-cü ili "Məhtumqulu İli" elan edib. Yubiley tədbirlərinə Azərbaycan da qoşulub.



Növbəti belə tədbir Azərbaycan Dövlət Pedaqoji Universitetində təşkil edilib. Türkmənistanın Azərbaycandakı səfirliyi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Türksoy kafedrası və M.Fəraqi adına Türkmən Dövlət Universiteti "Məhtumqulu Fəraqi və dünya ədəbiyyatı" adlı Beynəlxalq elmi-praktik konfransa təşkilatçılıq ediblər.

Tədbirdə Türkmənistanın Azərbaycandakı konsulu Sultan Açılov da iştirak edib. Türkmən Dövlət Universiteti və Türkmənistan Milli Elmlər Akademiyası konfransa video-bağlantı ilə qoşulub.

Giriş nitqi ilə çıxış edən ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov dünya ədəbiyyatı xəzinəsinə yüksək bədii dəyəri olan əsərlər bəxş etmiş Məhtumqulu Fəraqinin yeni ədəbiyyatın yaradıcısı kimi şöhrət tapdığını deyib. Məhtumqulunun həyatı ilə bağlı məlumat verən professor onun yaşadıqlarına, xüsusən yaradıcılığına çox böyük təsiri olan hadisələrə diqqət çəkib. Şairin nakam sevgisi, uğursuz ailə həyatı, övlad itkisi və mübarizədə keçən ömrü yaradıcılığında əksini tapıb. Ancaq yaşadıqları onun bədii dilini gücləndirib ki, istedadından heç nə əksiltməyib. Nəticədə xalq və klassik şeir ənənələri zəminində inkişaf edən XVIII əsr türkmən ədəbiyyatı M.Fəraqi yaradıcılığı ilə yeni tarixi inkişaf mərhələsinə başlayıb: "O, XVIII əsr klassik türkmən ədəbiyyatında realist şeirin əsasını qoyub".

M.Fəraqi adına Türkmən Dövlət Universitetinin şöbə müdiri, tarix elmləri namizədi Murad Hocaquliyev M.Fəraqinin dünya ədəbiyyatındakı yerinə və türk dünyasında şairə verilən dəyərə diqqət çəkib. Azərbaycanın şairin yubiley tədbirlərində fəal iştirakını yüksək qiymətləndirib.

Elmi konfransda M.Fəraqinin türkmən tayfalarının birliyi uğrunda mübarizəsinə geniş yer ayrılıb, əfqan hökmdarı Əhməd şahla, türkmənlərin görkəmli siyasi xadimi Çovdar xanla görüşləri xatırlanıb. Nadir şaha, Nurəli xana qarşı türkmənlərin üsyanlarında fəal iştirakı, bu uğurda verdiyi qurbanlara toxunulub. Bildirilib ki, ilk növbədə vətəndaş şair olan M.Fəraqi yaradıcılığı, əsasən türkmən həyatı ilə bağlıdır.

Tədbirdə çıxış edənlər xalq və klassik şeir ənənələri zəminində inkişaf edən XVIII əsr türkmən ədəbiyyatının M.Fəraqi yaradıcılığı ilə yeni tarixi inkişaf mərhələsinə qədəm qoyduğunu bildiriblər. Çıxışçılar onun övlad itkisi ilə bağlı kədərini necə ifadə etdiyinə, öz yaradıcılığında məhəbbətə xüsusi yer ayırdığına diqqət çəkib. Ancaq M.Fəraqi, ilk növbədə, vətəndaş şairdir. Bu barədə xüsusi söz açan Fəraqisevərlər şairdən danışarkən fikirlərini onun öz şeirləri ilə gücləndiriblər.

Azərbaycan Dövlət Pedaqoji Universiteti və M.Fəraqi adına Türkmən Dövlət Universiteti tələbələrinin görkəmli şairin yaradıcılığından təqdim etdikləri nümunələr xüsusilə maraqlı olub.

Türkmənistan Respublikasının Azərbaycandakı konsulu Sultan Açılov yüksək səviyyədə təşkilatçılığa görə ADPU rəhbərliyinə təşəkkürünü bildirib.

**Ruhiyyə DAŞSALAHLI**

# Gələcəyin təhsilinə praqmatik baxış



**Toğrul İBRAHİMOV,**
*Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi*

Texnoloji irəliləyişlər və sürətlə dəyişən sosial ehtiyaclar tərəfindən idarə olunan dünyada təhsil əlamətdar transformasiyaya hazırlaşır. Fərdiləşdirilmiş təlimdən virtual reallıq sinif otaqlarına qədər, təhsil mənzərəsi təhsilalanları sonsuz imkanlarla dolu gələcəyə hazırlayaraq paradiqma dəyişikliyinə məruz qalır.

Gələcəyin təhsilini formalaşdıran ən mühüm tendensiyalardan biri diferensial təlimdir. Süni intellektin və maşın öyrənməsi alqoritmlərinin meydana çıxması ilə təhsil platformaları təhsilalanların fərdi, unikal ehtiyaclarına və öyrənmə üslublarına uyğun olaraq təlimat verə bilir. Müasir dövrdə təhsil islahatının əsas prinsiplərindən olan təhsilin fərdiləşdirilməsi şagirdlərin yeni maraq və tələbatlarının nəzərə alınmasıdır. Bu fərdiləşdirmə öyrənməni daha da dərinləşdirərək öyrənmə nəticələrinin artırılmasına müsbət töhfə verə bilər.

Distant və hibrid öyrənmə modelləri də təhsildə yeni inqilaba səbəb ola bilər. Son illərdə onlayn təhsilin sürətlə yayılması virtual siniflərin bütün təbəqələrdən olan təhsilalanlara çatmaq potensialını aşkarladı. Hibrid öyrənmə onlayn və fərdi təlimin birləşməsi kimi sosial qarşılıqlı əlaqə və əməkdaşlığı da nəzərə alaraq çevik həllər təklif edir. Təhsilalanlar istənilən vaxt, istənilən yerdə dərs materiallarına daxil ola, real vaxt rejimində rəy ala və interaktiv multimedia resurslarından yararlana bilərlər. Bu çeviklik təhsilalanlara irəliləmələrinə nəzarət etmək və şəraitə uyğunlaşmaq imkanı yaradır.

Tarixin canlandığı virtual sinif otağına daxil olduğunuzu və ya simulyasiya edilmiş laboratoriya mühitində təcrübələr apardığınızı təsəvvür edin. Gələcəyin təhsili əhatəli öyrənmə təcrübələri yaradaraq virtual və artırılmış reallıq texnologiyalarını birləşdirəcək. Virtual reallıq (VR) və artırılmış reallıq (AR) təhsilalanları uzaq ölkələrə, insan bədəninin dərinliklərinə və ya kainata daşıya bilər ki, bu da onlara mürəkkəb anlayışları birbaşa tədqiq etməyə imkan verir. Bu texnologiyalar təhsilə yeni bir dizayn təqdim edir, nəzəriyyə ilə praktika arasındakı boşluğu aradan qaldıraraq körpü yaradır.

Mütəmadi dəyişikliklər dövründə ömürboyu öyrənmə zərurət halına gəlib. Məktəbdə təhsilin karyera ilə izləndiyi ənənəvi təhsil modeli tədricən öz yerini ömürlük bilik axtarışına verir. Fərdlər sürətlə inkişaf edən əmək bazarı tələblərinə və texnoloji irəliləyişlərə uyğunlaşmaq üçün öz bacarıqlarını davamlı olaraq yeniləməlidirlər. Təhsil gələcəkdə ömürboyu öyrənmə mədəniyyətini inkişaf etdirəcək, fərdləri həyatları boyu öyrənmək üçün alətlərlə təchiz edəcəkdir.

Əməkdaşlıq və qlobal əlaqələr də gələcək təhsil modelində ön planda olacaq. Texnologiya coğrafi maneələri aradan qaldıraraq təhsilalanlara mədəniyyətlərarası mübadilə, əməkdaşlıq layihələri və dünyanın hər yerindən olan ekspertlərlə cari vaxtda qarşılıqlı əlaqədə olmağa imkan verir. Bu əlaqə empatiyanı gücləndirə və təhsilalanları getdikcə daha şaxəli və müxtəlif qlobal işçi qüvvəsinə hazırlaya bilər.

Təhsil inkişaf etdikcə mövzuya aid biliklərlə yanaşı, ötürülə bilən bacarıqların öyrədilməsinin vacibliyi daha çox vurğulanır. Tənqidi düşüncə, problem həlletmə, yaradıcılıq və emosional intellekt gələcəyin qeyri-müəyyənliyini idarə etmək üçün vacib bacarıqlardır. Gələcək təhsil bu bacarıqların həqiqi proqramlar əsasında inkişafına üstünlük verəcək, təhsilalanları sürətlə dəyişən dünyada inkişaf etmək üçün zəruri olan alətlərlə təchiz edəcək.

Təhsildə yeniliklərin tətbiqi üçün qurumlar təhlilin gücündən istifadə edir. Çünki verilənlərə əsaslanan qərarların qəbulu daha etibarlı və proqnozlaşdırıla biləndir. Böyük həcmdə məlumatı təhlil etməklə müəllimlər şagird nailiyyəti haqqında düzgün fikirlər əldə edə, təkmilləşdirilməli sahələri müəyyən edə və təlimi fərdiləşdirə bilərlər. Məlumata əsaslanan yanaşmalar məqsədyönlü müdaxilələrə imkan verir, təlim nəticələrini optimallaşdırır və hər bir təhsilalanın uğur qazanması üçün lazım olan dəstəyi almasını təmin edir.

Artıq formal təhsildə əldə edilmiş təhsil sənədləri insanın bilik və bacarıqlarının yeganə ölçüsü ola bilməz. Rəqəmsal nişanlar, sertifikatlar və ya qısamüddətli, məqsədyönlü öyrənmə təcrübələri vasitəsilə əldə edilmiş sənədlər fərdlərə sürətlə dəyişən iş bazarına uyğunlaşmağa və öz təcrübələrini nümayiş etdirməyə imkan verir.

Texnologiya təhsildə mərkəzi rol oynadığından, etik mülahizələr hər şeydən üstün olur. Gələcəyin təhsili texnologiyadan məsuliyyətli istifadə, məlumatların məxfiliyi və informasiya mənbələrinin tənqidi qiymətləndirilməsini özü ilə birlikdə gətirir. Pedaqoqlar təhsilalanlara rəqəmsal dünyada məsuliyyətlə hərəkət etmək bacarıqlarını aşılamalı, texnologiyanın daha böyük miqyasda faydalı olması üçün istifadəsini təşviq etməlidirlər.

Gələcəyin təhsili böyük vəd və potensiala malikdir. Çünki innovasiya və fərdiləşdirmə biliklərin ötürülməsi və əldə edilməsi üsulunu yenidən formalaşdırır. Fərdiləşdirilmiş öyrənmə, virtual reallıq sinif otaqları, ömürboyu öyrənmə və qlobal əməkdaşlığı əhatə edən modellər fərdlərə daim inkişaf edən dünyada irəliləmək imkanı yaradır. Pedaqoqlar, siyasətçilər və tədqiqatçılar bu transformativ dövrdə texnologiyanın verdiyi imkanlara bərabər çıxışı təmin edə və təhsilalanların unikal ehtiyaclarını qarşılayaraq gələcək nəsilləri qarşıda duran çağırışlara hazırlamağa töhfə verə bilərlər.

# "Turizm" ixtisası tələbələri bilik və praktiki bacarıqlarını yoxladılar



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecdə "Heydər Əliyev İli" çərçivəsində "Turizm" ixtisası tələbələrinin bilik və praktiki bacarıqlarını yoxlamaq məqsədilə komandalar arasında yarış keçirilib. Yarışda "Xəzər", "İçərişəhər" (rus bölməsi) və "Qədim şəhər" komandaları iştirak ediblər. Ekspert qrupunun tərkibi Humanitar Kollecin direktoru dosent Nərmin Qaralovadan, direktor müavini Kamran Məsimovdan, Azərbaycan Həmkarlar Konfederasiyası nəzdində Bakı Turizm Agentliyinin müdiri Əlixan Mürvətovdan, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin turizm kafedrasının müdiri Səyavuş Məhişovdan, "BAYF-LİGHT" Tur firmasının icraçı direktoru Tahir Kərimovdan, eləcə də kollecin "Kulturologiya" şöbəsinin müdiri Göyçək Mustafayevadan və müəllimlər - Könül Əliyevadan, Yasir Hacıyevdən və Elmira Məmmədovadan ibarət olub.

Yarışmanın təşkilatçısı, pedaqoqika üzrə fəlsəfə doktoru Gülşən Abbasova Azərbaycan Respublikasının Turizm haqqında Dövlət Proqramında Turizm Sənayesi üçün ən vacib istiqamətlərdən biri olan peşəkar kadrların hazırlanması haqqında məruzə edib.

Yarış 2000-ci ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına salınmış Dövlət Tarix-Memarlıq Qoruğunda keçirilib. Komandalar üçün üzərində 12 tarixi obyekt yerləşən 3 marşrut müəyyən olunub və həmin komandaları tərkibi 3 nəfərdən ibarət olan təlimçi-ekspert qrupları müşayiət edib. Təlimçilərə İçərişəhərin xəritəsi, marşrut üzərində olan obyektlərin siyahısı, tələbələrə veriləcək suallar və qiymətləndirmə vərəqləri təqdim olunub. Ekspertlərin vəzifələri iştirakçıların verdiyi məlumatları dinləmək, turun aparılma texnikasına və təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqət yetirmək, verilən məlumatlarla əlaqəli suallara cavab almaq və onları qiymətləndirmək olub. Bundan başqa, iştirakçıların yaradıcılıq qabiliyyətlərini yoxlamaq məqsədilə onlara bəzi nöqtələrdə xüsusi tapşırıqlar verilib. Buna nümunə olaraq, Xovsuz xalçanın rəsminin çəkilməsi tapşırığına xüsusi dəvət olunmuş rəssam-animatorlar tərəfindən qiymət verilib. Növbəti tapşırıq, Bakıda Sovet dönəmində çəkilmiş filmlər haqqında məlumat verməklə "Brilliyant əl" filminin çəkiliş yerində "Çort poberi" səhnəsinin canlandırılması idi. Son olaraq marşrutun 12-ci nöqtəsində verilmiş 2 tapşırıqdan birini milli rəqslərin ifası, onların tarixi ilə bağlı sualların cavablandırılması və qiymətləndirilməsi təşkil edirdi. Hamını heyrətləndirən və xüsusi maraq doğuran sonuncu tapşırıq isə çay ənənəmizlə bağlı olub. İştirakçılar çay haqqında maraqlı məlumatlar veriblər, təlimçilərin suallarını cavablandırıblar və tapşırığın sonunda hər qrup tərəfindən çayın düzgün texnologiya ilə dəmlənməsi qaydaları nümayiş edilib. İştirakçılar tapşırıqların öhdəsindən məharətlə gəliblər. Yarış iştirakçıların yüksək əhvali-ruhiyyəsi ilə başa çatıb.

Sonda ekspertlərin səsverməsinə uyğun olaraq "Xəzər" komandası I, "İçərişəhər" komandası II, "Qədim şəhər" komandası isə III yerləri qazanıblar.

**Sifai SƏFƏROVA**

# "eTwinning" layihəsi üzrə 17 müəllim beynəlxalq konfransda iştirak edib



Cari ilin may ayı ərzində "eTwinning" layihəsi çərçivəsində ümumilikdə 17 təhsil işçisi olmaqla 8 müəllim Avropanın müxtəlif ölkələrində keçirilən konfranslarda, 9 müəllim isə beynəlxalq onlayn təlimlərdə iştirak edərək beynəlxalq sertifikat əldə edib.

Avropa Mərkəzi Dəstək Xidmətinin dəstəyilə keçirilən tədbirlərin məqsədi təhsilverənlərin müasir metodlar üzrə tədrisinin inkişaf etdirilməsi, İKT və dil bacarıqlarının artırılmasını, beynəlxalq həmkarları ilə ortaq dərs nümunələrinin, beynəlxalq layihələrin yaradılmasına şərait yaratmaqdır.

Qeyd edək ki, Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən layihə səfirləri üçün beynəlxalq konfransa Azərbaycandan 4 müəllim qoşulub. Avropanın 31 ölkəsindən 100-ə yaxın səfirin qatıldığı tədbirdə layihənin icra planı üzrə fəaliyyətlərinin təşkilinə dair təlimlər və panel müzakirələr təşkil edilib.

Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən "İnnovasiya və təhsil" mövzusunda konfransda Azərbaycanı 2 nəfər təmsil edib. Tədbir iştirakçıları təhsil işçilərinin ömürboyu təhsil konsepsiyasına uyğun zəruri bilik, bacarıq və səriştələrə yiyələnməsi istiqamətində təlimlərdə iştirak ediblər.

Həmçinin may ayı ərzində "Peşə təhsilində təcrübə mübadiləsi" mövzusunda Slovakiyanın Bratislava şəhərində seminar baş tutub. Peşə təhsili və təlimi sistemində XXI əsr tələblərinə cavab verən pedaqoji kadr hazırlığı fəaliyyətlərinə dəstək olmaq üçün layihə əsaslı öyrənmə təcrübələrini təşviq edən tədbirdə peşə müəssisəsinin 2 müəllimi iştirak edib.

Qeyd edək ki, layihə çərçivəsində pedaqoji işçilər üçün ilboyu onlayn təlimlərdə iştirak etmək imkanı da mövcuddur. Belə ki, cari ayda "İnklüziv məktəb" mövzusunda Yunanıstan Milli Dəstək Xidməti tərəfindən keçirilən beynəlxalq tədbirə ölkə üzrə 9 müəllim qatılıb. Tədbirin əsas məqsədi informasiya təhlükəsizliyinin təmin edilməsi, yenilikçi və yaradıcı yanaşmanın olması və nəticədə şagird və müəllimlərin müştərək işi əsasında öyrənmənin təmin edilməsinə yönəlmiş mühitin yaradılmasıdır.

15-17 may tarixlərində Bakıda təşkil edilən "İnnovasiya və təhsil" mövzusunda keçirilən tədbirdə 7 Avropa ölkəsindən 25 təhsil işçisi və Azərbaycanın 8 bölgəsindən 28 müəllim iştirak edib. Seminarın nəticəsi olaraq 22 ortaq dərs modeli yaradılıb və növbəti tədris ilindən icrasına başlanılması nəzərdə tutulub.

"eTwinning" Avropa İttifaqının Fasiləsiz Təhsil Proqramının tərkib hissəsidir və məktəbəqədər, orta məktəb və ali təhsil sahəsində olan təhsil işçilərinə peşəkar inkişaf təlimlərində iştirak etmək, beynəlxalq əməkdaşlıq etmək, ortaq dərs modelləri yaratmaq, icra etmək və Avropada ən böyük öyrənmə icmasının bir hissəsi olmaq imkanı verir.

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

aşağıdakı dekan və kafedralar üzrə müsabiqə

## ELAN EDİR:

**Dekan vəzifəsini tutmaq üçün**

1. Xarici tələbələr üzrə dekanlıq

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Ümumi tarix
2. Elektroenergetika mühəndisliyi
3. Elektronika və informasiya texnologiyaları
4. İnformatika
5. Rus və Şərq dilləri
6. İngilis dili və metodika
7. İngilis dili və tərcümə
8. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
9. Coğrafiya

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

*1. Biologiya kafedrası*
- baş müəllim - 2 yer

*2. Azərbaycan dili və ədəbiyyatı kafedrası*
- professor - 1 yer, dosent - 3 yer

*3. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası*
- dosent - 1 yer

*4. Ümumi tarix kafedrası*
- dosent - 1 yer

*5. Muzeyşünaslıq, Arxiv işi və kitabxanaçılıq kafedrası*
- dosent - 1 yer, baş müəllim - 1 yer (0,5 ştat)

*6. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası*
- müəllim - 1 yer, baş müəllim - 1 yer

*7. İnformatika kafedrası*
- baş müəllim - 1 yer

*8. İngilis dili və tərcümə kafedrası*
- dosent - 1 yer (0,5 ştat)

*9. Rus və şərq dilləri kafedrası*
- baş müəllim - 1 yer

*10. Musiqi təlimi kafedrası*
- baş müəllim - 1 yer,
- baş müəllim - 1 yer (0,5 ştat), müəllim - 1 yer

*11. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası*
- dosent - 1 yer (0,5 ştat), baş müəllim - 2 yer

*12. Xalq Çalğı Alətləri kafedrası*
- dosent - 1 yer

*13. Təsviri incəsənət kafedrası*
- professor - 1 yer

*14. Fortepiano kafedrası*
- dosent - 2 yer, baş müəllim - 1 yer

*15. Orkestr alətləri və dirijorluq kafedrası*
- baş müəllim - 1 yer (0,5 ştat)

*16. Pedaqogika və psixologiya kafedrası*
- dosent - 1 yer (0,5 ştat)

*17. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası*
-baş müəllim - 1 yer

*18. Ümumi təbabət və tibbi kliniki fənlər kafedrası*
- dosent - 1 yer (0,5 ştat)

*19. Stomatologiya kafedrası*
- baş müəllim - 1 yer (0,5 ştat)

*20. Fəlsəfə və sosial iş kafedrası*
- baş müəllim - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.**

**Ünvan:**
Naxçıvan şəhəri, universitet şəhərciyi
**Telefon:**
(036)545-23-66/10-01

**REKTORLUQ**



Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən fakültədə vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| № | Fakültə | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Audiovizual sənətlər fakültəsi | dekan | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**



**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5391 **Sifariş** 1366

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2017-ci ildə İbrahimli Qurban Yaşar oğluna verilmiş A-121747 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Quliyev İsa Aydın oğluna verilmiş E-448960 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kirovabad Politexnik Texnikumu** tərəfindən 1985-ci ildə Hüseynov Bəhman Müzəffər oğluna verilmiş ЖT-040385 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əliyeva Safura Bahadur qızına verilmiş A-011889 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2021-ci ildə Rzayev Emil Telman oğluna verilmiş A-148031 nömrəli diplom və E-349984 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Allahverdiyev Şahin Natiq oğluna verilmiş E-254425 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Kərimli Amirə İlqar qızına verilmiş A-485561 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Rzaquliyeva Leyla Vahid qızına verilmiş A-706535 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xoylu kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş İsmayılova (Allahverdiyeva) Mehriban Hüseyn qızına verilmiş AK-255140 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qurbanəfəndi kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Rüstəmova Ellada Ağamirzə qızına verilmiş B-471542 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 237 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Paşayev İsaq Fəxrəddin oğluna verilmiş A-080458 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Məmmədova Nərgiz Asif qızına verilmiş C-093769 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Gəndov kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əlixanov Elvin Mehmalı oğluna verilmiş B-470584 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Aşağı Mollu kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Əliyeva Lalə Elşən qızına verilmiş A-060759 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 209 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Ağayeva Günay Ədalət qızına verilmiş A-244242 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2004-cu ildə İsgəndərov Toğrul Nadir oğluna verilmiş AB-I-086442 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Süleymanov Ruslan Mirdamət oğluna verilmiş 228742 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Süleymanova Cevriyə Mirdamət qızına verilmiş 228743 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Tülər kənd ümumi orta məktəbi 2022-ci ildə bitirmiş Əbilov Polad Sakit oğluna verilmiş B-008287 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 233 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Rəhimova Sevda Rasim qızına verilmiş A-659076 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2002-ci ildə Ələkbərova Türanə Rafiq qızına verilmiş AB-II-089897 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Atayev Rauf Qafar oğluna verilmiş B-688134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Arayatılı kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədova Elnurə Qəşəm qızına verilmiş A-204717 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Yuxarı Ağasıbəyli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Xəlilova (Paşayeva) Şövkət Talıb qızına verilmiş B-151463 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2006-cı ildə Qurbanova Ayan Namiq qızına verilmiş B-079412 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1976-cı ildə Baxışov Məmmədəli Məhəmməd oğluna verilmiş A-I-017534 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Quliyev Elgiz Kərim oğluna verilmiş B-165104 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2022-ci ildə İsayeva Əsli Əhməd qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 243 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Şərifova Natalya Anatolyevnaya verilmiş A-019476 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Nəcəfov Elvin Arif oğluna verilmiş C-107834 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düyərli kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Mahmudova Gülər Zabit qızına verilmiş A-197331 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2010-cu ildə Şamiyeva Aygül Qəfər qızına verilmiş BB-II-110659 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2000-ci ildə Məmmədov Fazil Vahid oğluna verilmiş A-063387 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** Əhməd Cavad adına 4 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədova (Zeynalova) Gülnarə Hacı qızına verilmiş A-443173 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran 113 nömrəli Orta Texniki Peşə Məktəbi** ( indiki Lənkəran Peşə Liseyi) tərəfindən 1988-ci ildə Əhmədbəyli Saleh Telman oğluna verilmiş B-244889 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 146 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əmirov Rəşad Bəhram oğluna verilmiş B-001136 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Meynəman kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Mürvətova Fatimə Həmidxan qızına verilmiş B-95187 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Navahı qəsəbə 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Loladze Zöhrə Bahadur qızına verilmiş A-333827 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Bayramov Elnur Etibar oğluna verilmiş A-096893 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Sumqayıt Orta Texniki Peşə Məktəbi** (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1995-ci ildə Həsənov Şahmərdan Dilqəm oğluna verilmiş 3-0979319 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2021-ci ildə Əhmədova Mələk Fərrux qızına verilmiş C-127388 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xırmandalı kənd tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Abuşova (Əkbərova) Aysun Araz qızına verilmiş A-570409 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Mollalı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Rəvan Ramiz oğluna verilmiş A-600083 nömrəli tam orta təhsil haqqında attestat tapıldığı üçün etibarlı sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Tağıyeva Günay Pənah qızına verilmiş B-037905 nömrəli bakalavr diplomu və diploma əlavə, 2008-ci ildə verilmiş MNB-015999 nömrəli magistr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Lənkəran rayon** Havzava kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Hüseynova (Cabbarova) Sevda Şakir qızına verilmiş A-164264 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 26 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynli Tehran Firdovsi oğluna verilmiş E-502015 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qımılqışlaq kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Tarquliyeva İstəməz Faiq qızına verilmiş VB-002081 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Amsarqışlaq kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Qurbanova Gülşən Tofiq qızına verilmiş A-068095 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Meşəşambul kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Mollaçiyev Bəşir Bahaddin oğluna verilmiş B-111986 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1981-ci ildə Hüseynov Bəhman Bayram oğluna verilmiş ЖB-041059 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2009-cu ildə Cəfərquliyev Seymur Sabir oğluna verilmiş B-150406 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**93 nömrəli Bakı Peşə Məktəbi** (10 nömrəli Bakı Peşə Məktəbi) tərəfindən 1985-ci ildə Zeynalabdinova Nəsibə Zeynalabdin qızına verilmiş 2789 nömrəli fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynov Bəhruz Hacıbaba oğluna verilmiş B-016633 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam Dövlət Sosial-İqtisadi Kollec** tərəfindən 2021-ci ildə Aslanov Rüstəm Sahib oğluna verilmiş AA-158316 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Musayev Musa Rauf oğluna verilmiş A-704600 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədov Tale Əli oğluna verilmiş E-052741 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2006-cı ildə Məmmədov Nurlan Ramiz oğluna verilmiş B-075181 nömrəli bakalavr diplomu və əlavəsi, 2008-ci ildə verilmiş MNB-016363 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Ağayeva (Qarayeva) Kəmalə Nəsirulla qızına verilmiş A-508262 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Hüseynov Həzi Əli oğluna verilmiş 119028 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci** tərəfindən 2022-ci ildə Bəylərzadə Nadir Fəqan oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu** tərəfindən 1984-cü ildə Tağıyev Rahib İsa oğluna verilmiş ЛB-023005 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**“Elm və Təhsil” Mərkəzi Təfəkkür Universiteti** tərəfindən 2015-ci ildə Həsənli Ləman Rövşən qızına verilmiş A-082754 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə İsmayılova Aytən Mikayıl qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Akademik Zərifə Əliyeva adına Liseyi** 2017-ci ildə bitirmiş Həsənli Qəhrəman Musa oğluna verilmiş E-021661 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli Xarici dil təmayüllü məktəb-liseyi 2019-cu ildə bitirmiş Abbasov Namiq Samir oğluna verilmiş E-240654 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hacıyeva (Murğuzova) Günay Namiq qızına verilmiş A-819783 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Qasımova Jalə İlqar qızına verilmiş B-429221 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Gödel Zeynəb Muxtar qızına verilmiş B-430034 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qımır kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Xanməmmədova Türanə Sadəddin qızına verilmiş B-661880 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta məktəbi ümumi orta təhsil kursu üzrə 1994-cü ildə bitirmiş Qədirova (Abdullayeva) Şəfəq Əhməd qızına verilmiş MO-185 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**291 nömrəli Ekologiya Liseyi** 2011-ci ildə bitirmiş Naibzadə Sara Zahid qızına verilmiş A-011118 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Qaragüvəndikli kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Rüstəmzadə Fəqan Sərxoş oğluna verilmiş E-040356 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** A.S.Puşkin adına tam orta məktəbi 1991-ci ildə bitirmiş Oruczadə (Orucova) Ruqiyyə Paşa qızına verilmiş A-277837 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbini** 2020-ci ildə bitirmiş Kəngərli Aytac Nəsir qızına verilmiş AS-013736 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Rəsulova Sevda Rafiz qızına verilmiş A-691492 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 12 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Hacıyeva Yaqut Koroğlu qızına verilmiş B-426471 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Xüsusi İnternat Məktəbini** 1992-ci ildə bitirmiş Cəfərov Anar Qurban oğluna verilmiş A-232781 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** Dəfinə məktəb-liseyi 2006-cı ildə bitirmiş Kamilzadə (Nurullayev) Elvin Elnur oğluna verilmiş B-300165 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 151 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əhməd Selin Eldar qızına verilmiş E-275593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2020-ci ildə Abbaslı Ramil Müslüm oğluna verilmiş AA-135314 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 91 nömrəli tam orta məktəbin direktoru Svetlana Zülfüqarova və məktəbin pedaqoji kollektivi məktəbin veteran müəllimi

**ZƏFƏR MÜZƏFFƏR oğlu MƏMMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Məlumdur ki, qloballaşma dövründə hər bir ölkənin inkişafı yüksəkixtisaslı, müasir səriştə və bacarıqlara sahib insan kapitalından, onun intellektual səviyyəsindən çox asılıdır. İnsan kapitalının inkişafı isə, ilk növbədə, elm və təhsilin keyfiyyəti ilə müəyyən olunur. Bu baxımdan, Azərbaycan təhsilinin və elminin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyətin bugünkü inkişaf səviyyəsinə adekvat olan, müasir tələblərə cavab verən yüksəkixtisaslı kadrların hazırlanmasından ibarətdir. Bu mənada 2018-ci ilin noyabrında Prezident İlham Əliyev tərəfindən imzalanmış “2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində son illər görülmüş işlər ölkəmizdə yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasına mühüm töhfələr vermişdir. Bu proqramın mühüm istiqamətlərindən biri də Bakı Mühəndislik Universiteti və Cənubi Koreyanın İnha Universiteti arasında həyata keçirilən beynəlxalq ikili diplom proqramıdır. “Azərbaycan müəllimi” qəzetinə verdiyi müsahibəsində BMU-İNHA ikili diplom proqramının direktoru Humay Cəfərli beynəlxalq layihənin icrası və əhəmiyyəti, proqrama yeni qəbul kampaniyası barədə öz fikirlərini oxucularımızla bölüşür.




# 4 ildə 2 universitetdən 2 diplom

## Humay Cəfərli:

**“BMU-İNHA İDP Bakı Mühəndislik Universitetinin beynəlxalq təhsil sferasında nüfuzunun daha da möhkəmləndirilməsi, həmçinin beynəlxalq reytinqlərdəki mövqeyinin bir qədər də irəliyə aparılması baxımından çox əhəmiyyətli bir addımdır”**

*- BMU-İNHA İDP - proqramın hədəfi və İnha Universiteti haqqında nə deyə bilərsiniz? İnha Universiteti gənclərimiz üçün nə dərəcədə cəlbedici universitetdir?*

- İlk növbədə, onu qeyd edim ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nda əsas istiqamətlərdən biri prioritet ixtisaslar üzrə dünyanın nüfuzlu universitetləri ilə yerli universitetlər arasında beynəlxalq ikili diplom proqramlarının təsis olunmasıdır. Proqram çərçivəsində 28 avqust 2020-ci ildə Bakı Mühəndislik Universiteti (BMU) ilə Koreya Respublikasının (Cənubi Koreya) İnha Universiteti arasında bakalavriat səviyyəsində mühəndislik ixtisasları istiqaməti üzrə ikili diplom proqramı - BMU-İNHA İDP imzalanıb. BMU-İNHA İDP təhsil üzrə bir əməkdaşlıq proqramıdır və əsas hədəfi - ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda ən müasir tələblərə cavab verən yeni nəsil mütəxəssislər yetişdirməkdir.

Koreya Respublikasının lider universitetlərindən biri sayılan və 20 mindən çox tələbəsi olan İnha Universitetinə gəlincə, təhsil müəssisəsi müasir təhsil proqramları, yüksək keyfiyyətli təcrübəli fərdi və akademik kadrları, texnoloji imkanları ilə fərqlənir. Reytinq üzrə 189 universitet arasında 8-ci yerdə olan ali təhsil ocağının 73 ixtisasından 26-sı məhz mühəndislik ixtisası ilə bağlıdır. Eyni zamanda Koreya bir sıra məşhur brendlərin, ticarət markalarının vətəni olmaqla, mühəndislik sahəsində ən inkişaf etmiş ölkələrdən biridir. Buraya avtomobil sənayesindən məişət avadanlıqlarının hazırlanmasına qədər geniş spektri əhatə edən “Samsung”, “LG”, “Hyundai”, “Kia” kimi markalar daxildir. Dünyada məşhur olan bu brend məhsulların hazırlanması mühəndislik ixtisasının inkişafı olmadan mümkün deyil. Bu səbəbdən, düşünürəm ki, İnha Universiteti gənclərimiz üçün çox dəyərli və cəlbedicidir, eyni zamanda Cənubi Koreya ilə



əməkdaşlığı dövlətimizin uzaqgörən strateji addımı kimi qiymətləndirmək olar.

### Bu il 3-cü kurslar Koreyada təhsillərini davam etdirmək üçün yola düşəcəklər

*- Proqram çərçivəsində bu vaxta qədər görülmüş işlər barədə məlumat verməyinizi xahiş edirik. Gənclərin bu proqrama marağı necədir?*

- Dörd qəbul ilini əhatə edən bakalavr proqramına “İnformasiya texnologiyaları”, “İnşaat mühəndisliyi”, “Elektrik mühəndisliyi” və “Elektronika mühəndisliyi” ixtisasları üzrə ümumilikdə müqavilə müddətində 400 nəfərin qəbul olunması nəzərdə tutulub. Müqaviləyə əsasən, hazırda proqramın üçüncü ilinin icrası davam etməkdədir və 2020/2021, 2021/2022, 2022/2023-cü tədris illəri üzrə aparılan qəbulun nəticələrinə əsasən, 270-dən çox tələbə 4 ixtisas üzrə İDP-də təhsil almaqdadır. Proqram çərçivəsində tələbələr üçün Koreyada “Yay məktəbi”, professor-müəllim heyəti üçün isə təlimlər təşkil olunub və bu işlər davam etdirilir. 3+1 modeli əsasında qurulan proqrama əsasən, tələbələr 3 akademik ili BMU-da, 1 akademik ili - sonuncu kursu isə İnha Universitetində təhsil almalıdırlar. Bu il 3-cü kurslarımız BMU-da tədrisi uğurla başa vuraraq, İnha Universitetində təhsillərini davam etdirmək üçün yola düşəcəklər. Müşahidələrimiz və statistikalar gənclərin bu proqrama marağının yüksək olduğunu deməyə əsas verir. Təkcə 2022-ci ildə BMU-İNHA İDP-yə qəbul olan 116 nəfərdən 49-u 600-dən, 50 nəfəri isə 500-dən yüksək bal toplayanlardır. Bu rəqəmlər yüksək bal toplayan gənclər arasında proqramın populyarlığı ilə yanaşı, həm də proqramın icrasında uğurlu nəticələrin göstəricisidir.

### 2023/2024-cü tədris ili üzrə İDP-yə qəbul zamanı yaxınlaşır

*- Kimlər bu proqramda iştirak edə bilər? Qəbul şərtləri necədir? Namizədlər hansı tələblərə əməl etməlidirlər?*

- Proqramda Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanda hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplayan, Azərbaycan Respublikasının vətəndaşı olan abituriyentlər iştirak edə bilər. BMU ilə İnha Universitetinin birgə təşkil etdiyi müsabiqədən uğurla keçən və qəbul olan abituriyentlər qeyd olunan 4 ixtisasdan birində öz seçimlərinə görə dövlət sifarişi əsasında təhsil ala biləcəklər. Əlavə olaraq, şagirdlər İnha Universitetinin fizika, riyaziyyat və ingilis dili üzrə təşkil etdiyi yazılı imtahandan uğurla keçməlidirlər. Son qəbul ilində 2023-cü qəbul ili üçün ixtisaslar üzrə keçid balı “İnformasiya texnologiyaları” üzrə 550, İnşaat mühəndisliyi, Elektronika mühəndisliyi və Elektrik mühəndisliyi istiqamətləri üzrə 400 bal olaraq nəzərdə tutulub. 2023/2024-cü tədris ili üzrə İDP-yə qəbul üçün 5 iyun - 9 avqust 2023-cü il tarixlərində onlayn qeydiyyat həyata keçiriləcək. Daxili imtahanın 12 avqust tarixində keçirilməsi nəzərdə tutulur, imtahan nəticələrinin isə 17 avqust tarixində elan edilməsini planlaşdırırıq. Onu da deyim ki, İDP-yə qəbul ola bilməyən namizədlərin DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirak etmək üçün də ən azı bir həftə vaxtları olacaq.

*- BMU-İNHA İDP tədris prosesi barədə. Tədris harada keçir? Pandemiya ikili proqrama necə təsir edib?*

- 2021-ci il mart ayından etibarən ölkəmizdə bütün təhsil müəssisələri onlayn təhsil formatına keçdiyi zaman İDP tələbələri üçün də ilk və ikinci tədris ilinin müəyyən bir hissəsi onlayn şəkildə təşkil olunub. Bu proses təhsil sahəsinə müəyyən təsir etsə də, bu kimi çətinliklər bizə proqramın icrasında maneə törədə bilməyib. Hazırda tədris ənənəvi formada, yüksək səviyyədə Bakı Mühəndislik Universitetində keçirilir.

*- BMU-İNHA İDP-nin tədris modeli Azərbaycan və ya Koreya təhsil proqramlarına əsaslanır? Müəllim heyəti kimlərdir?*

- BMU-İNHA İDP-nin tədris modeli hər iki universitetin təcrübəli akademik kadrları tərəfindən birgə hazırlanıb. Bu tədris modeli İnha Universitetinin beynəlxalq standartlara uyğun olan təhsil proqramlarına əsaslanır. Müəllim heyətinə gəldikdə isə BMU-İNHA İDP tələbələrə müxtəlif müəllimlərdən ibarət heyət tərəfindən tədris olunur. Bu müəllimlər sırasında İnha Universitetinin professor-müəllim heyəti ilə yanaşı, müxtəlif beynəlxalq universitetlərin təcrübəli akademik kadrları da yer alır. Bu müxtəliflik sayəsində tələbələr fərqli perspektivlərdən təcrübə və biliklər əldə edir və dünya standartlarına uyğun təhsil almaq imkanına malik olurlar.

### İki fərqli ölkənin diplomuna eyni anda yiyələnməyin üstünlükləri

*- Proqram çərçivəsində 2 diplom tələbələrimizə nə kimi bilik və üstünlüklər qazandıracaq?*

- Ümumiyyətlə, BMU-İNHA İDP tələbələrə ingilis dilində müasir və rəqəmsal təhsil almaq üçün dünyanın dörd bir yanındakı universitetlərin təcrübələrindən istifadə etmək, bunun sayəsində də uğurlu bir karyera qurmaq fürsəti qazandırır. Proqramın tələbələrə zəngin bilik və bacarıqlarla yanaşı, xeyli üstünlüklər verəcəyini düşünürəm. Əvvəla, proqram tələbələrin beynəlxalq perspektivlərdə, sinxronlaşdırılmış iki tədris proqramı - kurikulum əsasında tam beynəlxalq keyfiyyətli unikal təhsil almaq imkanına malik olmalarını təmin edir, onlara fərqli təhsil sistemlərindən yararlanmaq fürsəti verir. Bu, tələbələrə müxtəlif təhsil metodları və təcrübələri öyrənərək daha geniş bir platformada təhsil almaq və inkişaf etmək şansı qazandırır. BMU-İNHA İDP tələbələrə iki fərqli universitetdən, eyni zamanda iki diplom almaq imkanı verir, iki fərqli təhsil müəssisəsinin təcrübə və biliklərini qazandırır. İki fərqli ölkənin diplomuna eyni anda yiyələnmək böyük avantajdır, bu, tələbələrin iş həyatı, uğurlu karyera qurmaq imkanlarını genişləndirir. Həmçinin çoxdilli tədris mühitində oxumaq imkanı verən BMU İNHA İDP ingilis dili ilə yanaşı, Koreya dili bacarıqlarını təkmilləşdirir, tədqiqat, beynəlxalq təhsil, təhlil sahəsində fərdi inkişafa sövq edir.

### BMU-İNHA İDP - tələbələr üçün gələcəyə açılan qapıdır

*- İkili diplom proqramı məzunlara əmək bazarında nə kimi imkanlar verir? İnha diplomu əmək bazarında nə dərəcədə tələbolunandır?*

- Beynəlxalq rəqabətliliyin artırılmasına istiqamətlənən proqramın icrası nəticəsində bu məzunlar ən qabaqcıl elmi nailiyyətlər, innovativ təlim-tədris texnologiyalarının yaratdığı imkanlar hesabına Azərbaycanda yeni nəsil mütəxəssislər olaraq yetişdiriləcəklər. Məzunlar seçdikləri istiqamətlər üzrə mühəndislik sahələrində müasir bilik və bacarıqlara yiyələnəcəklər. Bütün bu amillər onların əmək bazarında tələb olunan kadrlara çevrilməsinə, gələn iş təkliflərini dəyərləndirərək, onların arasından daha nüfuzlusunu seçmək imkanı verir, eyni zamanda yüksək karyera imkanları üçün geniş yollar açır. Gördüyünüz kimi, BMU-İNHA İDP-ni seçmək tələbənin inkişafı və uğuru üçün ciddi bir üstünlük yaradır. Sadaladığım yüksək keyfiyyətlərlə yanaşı, məzunlar magistratura və doktorantura təhsillərini Cənubi Koreyada təqaüdlə davam etdirmək üstünlüyü əldə edirlər. Azərbaycanda və dünyanın istənilən nöqtəsində işlə təminat şansının yüksək olmasından savayı, onu da qeyd edim ki, “Dövlət Proqramı” məzunları seçilmiş məzun olaraq “Dövlət qulluğu”na müsabiqədənkənar qəbul edilirlər. Bu da BMU-İNHA İDP-nin karyera yolunda əlverişliliyinin daha bir göstəricisidir. Bu proqram tələbələr üçün gələcəyə açılan qapıdır.

*- BMU-İNHA ikili diplom proqramının Azərbaycan ali təhsil sisteminin rəqabətliliyinin artırılması, eləcə də BMU-nun nüfuzunun möhkəmləndirilməsi, beynəlxalq reytinqlərdəki mövqeyinin yaxşılaşdırılması baxımından əhəmiyyətini necə qiymətləndirərdiniz?*

- BMU-İNHA İDP Azərbaycan ali təhsil sisteminin rəqabətliliyinin artırılması, yerli təhsil mühitində özünəməxsus yeri olan Bakı Mühəndislik Universitetinin beynəlxalq təhsil sferasında nüfuzunun daha da möhkəmləndirilməsi, həmçinin beynəlxalq reytinqlərdəki mövqeyinin bir qədər də irəliyə aparılması baxımından çox əhəmiyyətli bir addımdır. Digər tərəfdən, proqram tələbələrimizə Koreya Respublikasının ən yaxşı universitetlərindən biri olan İnha Universitetinin təcrübəsindən faydalanmaq imkanı yaratmaqla, Azərbaycanın ali təhsilində keyfiyyətin məzmunca dəyişməsində də faydalı olacaq.

Hesab edirəm ki, proqramın icrası BMU-nun beynəlxalq təhsil bazarında daha konkret və rekord üstələyici bir mövqedə qərarlaşmasına kömək edəcək. Ümumiyyətlə, BMU-İNHA İDP-nin icrası yalnız Azərbaycanın ali təhsilinin rəqabətliliyinin artırılması, ölkənin inkişaf prioritetlərinə uyğun yüksəkixtisaslı kadrların müasir standartlar səviyyəsində hazırlığına nail olunması ilə kifayətlənməyəcək, Azərbaycan və Koreya Respublikası arasındakı münasibətlərin daha da yaxınlaşması, möhkəmləndirilməsi və inkişafında öz töhfəsini verəcək. Əminəm ki, BMU-İNHA İDP Koreya ilə yalnız təhsil sahəsində əlaqələri deyil, ölkələrarası dostluğu da möhkəmləndirəcək.

**Oruc MUSTAFAYEV**

2023-cü qəbul ili üçün ixtisaslar üzrə keçid balı “İnformasiya texnologiyaları” üzrə 550, İnşaat mühəndisliyi, Elektronika mühəndisliyi və Elektrik mühəndisliyi istiqamətləri üzrə 400 bal olaraq nəzərdə tutulub. 2023/2024-cü tədris ili üzrə İDP-yə qəbul üçün 5 iyun - 9 avqust 2023-cü il tarixlərində onlayn qeydiyyat həyata keçiriləcək.

BMU-İNHA İDP tələbələrə iki fərqli universitetdən, eyni zamanda iki diplom almaq imkanı verir, iki fərqli təhsil müəssisəsinin təcrübə və biliklərini qazandırır. İki fərqli ölkənin diplomuna eyni anda yiyələnmək böyük avantajdır, bu, tələbələrin iş həyatı, uğurlu karyera qurmaq imkanlarını genişləndirir.

Məzunlar magistratura və doktorantura təhsillərini Cənubi Koreyada təqaüdlə davam etdirmək üstünlüyü əldə edirlər. Azərbaycanda və dünyanın istənilən nöqtəsində işlə təminat şansının yüksək olmasından savayı, “Dövlət Proqramı” məzunları seçilmiş məzun olaraq “Dövlət qulluğu”na müsabiqədənkənar qəbul edilirlər.